DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 01 (363) / YANVAR 2022-Cİ İL

# PREZİDENT İLHAM ƏLİYEV: BİZ ERMƏNİLƏRDƏN FƏRQLİ OLARAQ HEÇ VAXT HƏRBİ CİNAYƏTƏ ƏL ATMARIQ



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Gəncə şəhərinə səfəri çərçivəsində Azərbaycan Dövlət İnformasiya Agentliyinə - AZƏRTAC-a müsahibə verib.

Müsahibəni təqdim edirik.

**Müxbir: Cənab Prezident, öncə suallarımızı cavablandırdığınız üçün minnətdarlığımızı bildiririk. Cənab Prezident, dəfələrlə Gəncə şəhərində olmusunuz, şəhərdə xeyli işlər görülüb. Bu işlər barədə fikirlərinizi bilmək istərdik.**

**Prezident İlham Əliyev:** Bu, mənim Gəncəyə Prezident kimi 18-ci səfərimdir. Belə çıxır ki, orta hesabla hər il Gəncədə səfərdə oluram. Elə illər olub ki, iki dəfə olmuşam. Həm ona görə ki, Gəncə Azərbaycanın ikinci şəhəridir və bu şəhərə daim diqqət həmişə yüksək səviyyədə olub. İkincisi, ona görə ki, bir çox layihələr Gəncə şəhərində icra edilib və bu layihələrin icrası davam edir. Gəncə şəhərinin kompleks inkişaf planı həm təsdiqlənib, həm də uğurla icra edilir. On səkkiz ildir ki, mən ölkə Prezidentiyəm və 18 dəfə Gəncədə olmuşam.

Son illərdə biz Gəncənin əsas infrastruktur layihələrini icra etməyə çalışdıq və bu layihələrin böyük əksəriyyəti öz həllini tapdı. Elektrik enerjisi ilə təchizat tam öz həllini tapmışdır. Gəncədə 10 yarımstansiya həm yenidən tikilib, həm də əsaslı təmir edilib. Onların enerji istehsalı gücü 220 meqavatdır, şəhərin tələbatını tam ödəyir. Eyni zamanda, şəhərin artan tələbatı, o cümlədən sənaye potensialı da nəzərə alınacaqdır.

Qazlaşdırma layihəsi tam icra edilibdir. İçməli su layihəsi hələ ki, icra edilir. Əfsuslar olsun ki, bu layihə bir qədər uzandı. Düzdür, çox genişmiqyaslı layihədir, həm də maliyyətutumlu layihədir, təqribən 800 milyon manat dəyərində olan bir layihədir. Bu layihənin icrası nəticəsində Gəncə şəhərinin içməli su və kanalizasiya problemləri birdəfəlik həll olunacaq. Mənə verilən son məlumata görə, hazırda bu layihənin icrası 42 faiz səviyyəsindədir. Əlbəttə, əlavə tapşırıqlar veriləcək ki, bu layihənin icrası sürətləndirilsin, Gəncə şəhərinin bu problemi də öz həllini tapsın.

Avtomobil yollarının çəkilişi ilə bağlı deyə bilərəm ki, indi bütün ölkədə olduğu kimi, Gəncəyə gedən yollar tam müasirləşdirilib. Həm Bakı-Gəncə avtomobil yolunun, həm də Gəncə-Qazax-Gürcüstan sərhədi yolunun çəkilişi başa çatıb. İndi biz bu yolu iki zolaqdan dörd zolağa genişləndiririk. Eyni zamanda, Gəncədən digər şəhərlərə - Göygöl, Daşkəsən şəhərlərinə gedən yollarda da əsaslı təmir işləri aparılmışdır.

davamı səh. 2

YENİ AZƏRBAYCAN PARTİYASI: YENİ PROQRAMLA MÖHTƏŞƏM ZİRVƏLƏRƏ DOĞRU



Səh. 4

DÖVLƏT KOMİTƏSİNDƏ SƏYYAD SALAHLININ 70 İLLİK YUBİLEYİ İLƏ BAĞLI TƏDBİR KEÇİRİLİB



Səh. 8

DQİDK YANINDA İCTİMAİ ŞURANIN NÖVBƏTİ İCLASI KEÇİRİLİB



Səh. 11

İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI -2020 BAMAKO



Səh. 13

# PREZİDENT İLHAM ƏLİYEV: BİZ ERMƏNİLƏRDƏN FƏRQLİ OLARAQ HEÇ VAXT HƏRBİ CİNAYƏTƏ ƏL ATMARIQ

əvvəli səh. 1

Bildiyiniz kimi, Gəncəyə Bakıdan dəmir yolu xətti də tam modernləşdirilib. Bu, əslində, Şərq-Qərb nəqliyyat dəhlizinin bir parçasıdır. İndi xəttə sürətli qatarlar da buraxılıb. Dünyanın aparıcı İsveçrə şirkəti tərəfindən istehsal edilən bu qatarlar həm vaxt baxımından çox əlverişlidir, həm də ki, komfortludur. Hazırda Bakıdan Gəncəyə və Gəncədən Bakıya yüksək sürətli qatarlar işləyir. Bu, əlbəttə ki, insanların rahatlığı üçün də çox önəmli bir məsələdir. Həm avtomobil yolu ilə rahat gəlmək olur, həm də hava məkanı qonaqlar üçün, Azərbaycan vətəndaşları üçün indi tam müasir səviyyəyə uyğundur. Gəncə Beynəlxalq Hava Limanı uzun illər bundan əvvəl mənim təşəbbüsümlə yenidən qurulmuşdur.

Yəni, bunlar əsas infrastruktur layihələridir. Bunlar həll olunmadan şəhərin inkişafından söhbət gedə bilməzdi. Bununla paralel olaraq, əlbəttə ki, həm səhiyyə, həm təhsil sahəsində bütün sosial infrastruktur yenilənib. Baxın, indi Gəncədə 245 çarpayılıq şəhər xəstəxanası demək olar ki, yenidən tikilib və əlavə 200 çarpayılıq modul tipli xəstəxana quraşdırılıb. Təhsillə bağlı. Şəhərdə 30-dan çox məktəb tikilib və təmir edilib. Bu problemin böyük hissəsi öz həllini tapıb. Dövlət Aqrar Universitetinin iki yataqxanası istifadəyə verilib. Mən hər ikisinin açılışında iştirak etmişəm və tədris korpusu yenidən qurulub. Nəzərə alsaq ki, hazırda ölkə iqtisadiyyatı üçün kənd təsərrüfatı xüsusi önəm daşıyır, bu təhsil mərkəzinin müasirləşdirilməsi, əlbəttə, çox böyük əhəmiyyətə malik idi.

Eyni zamanda, Gəncənin mədəni həyatı çox zəngindir. Həm Dövlət Filarmoniyasının yeni binası tikilib, həm də Dram Teatrının. Yəni, Gəncənin hərtərəfli inkişafı ilə bağlı işlər görülür, o cümlədən parklar, xiyabanlar, istirahət və əyləncə zonaları yenidən qurulur. Görülən bütün bu işlər düzgün müəyyən edilmiş siyasətin nəticəsidir.

Bir də ki, İkinci Qarabağ müharibəsindən sonra Gəncə, eyni zamanda, Kəlbəcər rayonunun inkişafı ilə bağlı öz sözünü deyir və deməlidir. Çünki hazırda bizim Kəlbəcərə yeganə, yəni, rahat gedə biləcəyimiz yol Gəncədən Göygölə, Göygöldən Kəlbəcərədir. Rahat deyəndə, biz ancaq yaz-yay mövsümlərində o yoldan rahat istifadə edə bilərik. Çünki qış aylarında yol həm bəzi yerlərdə keçilməz, həm də çox təhlükəli olur. Bu yol faktiki olaraq sovet vaxtında olmayıb, bir cığır idi. Biz qısa müddət ərzində o cığırı genişləndirdik və mən özüm də keçən il o yolla Kəlbəcərə getmişdim, Murov aşırımından keçərək. Hazırda Murov dağının altından böyük - uzunluğu təqribən 12 kilometr olan tunel çəkilir. Yəni, Kəlbəcərin gələcək inkişafı, vətəndaşların oraya qayıtmaları və Kəlbəcər rayonunun, eyni zamanda, Laçın rayonunun təchizatı böyük dərəcədə bu bölgədən təşkil ediləcəkdir. Ona görə Gəncə və bu zona azad edilmiş torpaqların bərpası, vətəndaşların rahat yaşaması üçün xüsusi əhəmiyyət daşıyır. Hazırda bizim hərbi postlarımıza, bizim sərhəd boyunca yerləşən postlara da əsas təchizat buradan gedir. Ona görə Gəncə və Gəncənin ətrafında yerləşən ərazilərin bundan sonra da ölkəmizin həyatında, xüsusilə azad edilmiş torpaqların həyatında xüsusi rolu olacaqdır.

Əlbəttə ki, şəhərin əhalisi artır. Əhalinin bu artımına və müasir tələblərə uyğunlaşmaq üçün biz, əlbəttə ki, əlavə addımlar atırıq və atacağıq. Eyni zamanda, hazırda Daşkəsən rayonunda dağ-mədən sənayesinin uğurla inkişafı da böyük dərəcədə Gəncədəki infrastrukturla bağlı olacaq. Çünki orada həm qızıl yataqları, həm də dəmir filizi yataqları mövcuddur. Bu işlərin sürətləndirilməsi üçün əlavə göstərişlər verilib. Dəmir filizi yataqlarından səmərəli istifadə etmək üçün zəncirvari sənaye klasteri yaradılmalıdır. Əlbəttə ki, Gəncənin də burada xüsusi rolu olacaqdır. Bir sözlə, Regionların Sosial-İqtisadi İnkişafı Dövlət proqramlarının icrası nəticəsində Gəncə şəhəri həmişə xüsusi yerə malik olubdur. Bu gün də belədir, sabah da belə olacaq.

**- Cənab Prezident, bu gün də bir neçə mühüm obyektin açılışını etdiniz. Bu açılışlar nəyi göstərir? Bu açılışlar barədə nələri deyə bilərsiniz?**

- Əslində, bu açılışlar onu göstərir ki, Gəncənin inkişafı və şəhərin problemlərinin həlli daim diqqət mərkəzindədir. Həm də, onu göstərir ki, baxmayaraq, bizim əsas diqqət mərkəzimiz azad edilmiş torpaqlara - Qarabağa və Zəngəzuradır, eyni zamanda, bütün başqa şəhər və rayonlarımız daim diqqətlə əhatə olunur. Əgər mənim təkcə bugünkü proqramıma nəzər salsaq, görərik ki, bir çox önəmli obyektin açılışı oldu, təməlqoyma mərasimi oldu. Onların içində, əlbəttə ki, "ASAN xidmət" Mərkəzinin açılışını xüsusilə qeyd etmək istəyirəm. Bir neçə il bundan əvvəl Gəncədə "ASAN xidmət" Mərkəzi açılmışdır. Ancaq tələbat o qədər böyükdür ki, növbələr yarandı. Əlbəttə ki, "ASAN xidmət"in xüsusiyyətlərindən biri həm şəffaflıqdır, müasir xidmətlərin göstərilməsidir, həm də rahatlıqdır. Ona görə biz xidmətin adını "ASAN" qoymuşuq. Əgər növbə yaranırsa və insanlar saatlarla növbədə dayanırsa, bu, artıq "ASAN xidmət" olmadı. Ona görə mənim göstərişimlə ikinci "ASAN xidmət" Mərkəzi yaradıldı, birincidən daha böyük. Bu xidmət artıq bu gün rəsmən açıldı və bir neçə gündən sonra öz qapılarını vətəndaşların üzünə açacaq. Beləliklə, növbələr artıq aradan götürüləcək.

Eyni zamanda, bu gün Gəncə Dram Teatrının açılışı oldu. Təəssüf edirəm ki, pandemiyaya görə teatrın truppası ilə görüşə bilmədim. Ancaq yadımdadır ki, mən bir neçə il bundan əvvəl Gəncədə olarkən teatrın truppasının nümayəndələri şəhərdə dram teatrının tikilməsi ilə bağlı mənə müraciət etmişdilər. Mən də onlara söz vermişdim ki, bu müraciəti nəzərə alacağam. Həm memarlıq, həm də funksionallıq baxımından çox gözəl, möhtəşəm Dram Teatrı açıldı. Yenə də deyirəm, ölkə qarşısında bir çox problemlər var və bu problemlər təxirəsalınmaz həllini gözləyir. Amma buna baxmayaraq, mədəniyyətə, şəhərin, Gəncənin mədəni həyatına töhfə verə biləcək hər bir təşəbbüs dəstəklənməlidir. Necə ki, bir neçə il bundan əvvəl Gəncə Filarmoniyası açıldı. Baxın, bu Filarmoniyanın açılması Gəncə şəhərinin mədəni həyatına nə qədər töhfə veribdir, eyni zamanda, şəhərin ümumi görünüşünə gözəl töhfə olubdur. Çünki memarlıq baxımından çox gözəl bir binadır. Dram Teatrı da çox möhtəşəm binadır və orada artistlər, truppa üzvləri və tamaşaçılar üçün gözəl şərait yaradılıb.

Bu gün, eyni zamanda, Gəncə İdman Sarayının tikintisi ilə tanış oldum. Bu sarayı da mənim təşəbbüsümlə inşa etməyə başlamışıq. Bu, çox böyük layihədir. Deyə bilərəm ki, Azərbaycanda bu boyda idman sarayı yoxdur, hətta Bakı şəhərində. Baxmayaraq ki, Bakı şəhərində bir çox idman sarayları var, - ancaq bütün əsas idman növlərinin bir yerdə cəmləşməsi Bakıda yoxdur. Burada isə həm döyüş idman növləri, güləş, boks, həm məktəblər - güləş məktəbi, boks məktəbi, həmçinin əl oyunları üçün xüsusi zal - basketbol, voleybol, həndbol, 50 metrlik üzgüçülük hovuzu, yardımçı otaqlar və zallar, otel. Yəni, bir daha demək istəyirəm ki, bu, ölkəmizin ən böyük idman sarayıdır. Bu sarayı Gəncədə inşa etmək gəncəlilərə edilən bir hədiyyədir. Onu da bildirməliyəm ki, hələ mən Prezident olmadığım dövrdə, Milli Olimpiya Komitəsinin prezidenti kimi Gəncədə Olimpiya Mərkəzinin yaradılması ilə bağlı təşəbbüslə çıxış etmişdim və o idman qurğusu o vaxt inşa olunub. Ancaq illər keçdikcə, əlbəttə ki, bu idman obyekti həm fiziki, həm mənəvi cəhətdən köhnəlib və orada normal məşq etmək üçün şərait o qədər də uyğun deyildi. Amma bu idman sarayı əminəm ki, gələn ilin sonuna qədər istifadəyə veriləcək, həm idmançılar, həm də şəhər sakinləri üçün çox faydalı olacaq. Çünki mən hesab edirəm və haqlıyam ki, hər bir insan idmanla məşğul olmalıdır. Yəni, bu obyektlərin açılması və təməlinin qoyulması, əlbəttə ki, şəhərə olan qayğının təzahürüdür.

Gəncədə lokomotiv deposunun yaradılması artıq başa çatıb. Buna da çox böyük ehtiyac var. Çünki qeyd etdiyim kimi, Gəncədən Şərq-Qərb nəqliyyat dəhlizi keçir. Bakıda bu yaxınlarda lokomotiv deposu açılmışdır, ikinci depo isə Gəncədə açıldı. Görün, bugünkü proqramın nə qədər böyük əhatə dairəsi var. Bütün bu açılışlar və təməlqoyma mərasimləri göstərir ki, ölkəmizin hər bir yerində inkişaf getməlidir, davam etməlidir, biz əldə olunmuş nailiyyətlərlə kifayətlənməməliyik, yalnız irəliyə getməliyik və bütün gücümüzü səfərbər edib insanlar üçün daha yaxşı həyat şəraiti yaratmalıyıq.

**- Cənab Prezident, bu gün Siz, eyni zamanda, Vətən müharibəsi ərzində erməni faşist ordusu tərəfindən dağıdılmış ərazidə Memorial Kompleksin təməlini qoydunuz. Bununla bağlı fikirlərinizi bilmək istərdik.**

- Bilirsiniz, bu dağılmış evlərin önündə olmaq, bax, bu dəhşətli mənzərəni seyr etmək hər bir azərbaycanlı üçün çox ağırdır. İkinci Qarabağ müharibəsi dövründə Gəncə dəfələrlə cinayətkar Ermənistan ordusu tərəfindən bombalanıb. Şəhərə 13 raket atılıb, onlardan 8-i partlayaraq əfsuslar olsun ki, insanların həyatına son qoyub, beş raket isə partlamayıb. Bu da öz növbəsində onu göstərir ki, Ermənistan ordusu nə vəziyyətdə idi. Ancaq bu namərd atəş nəticəsində həlak olan vətəndaşlarımız yaşamalı idi. Onların arasında uşaqlar, qadınlar, yaşlı insanlar da var idi, 6 uşaq həlak oldu. Təkcə Gəncə şəhərində 26 mülki vətəndaş namərd atəş nəticəsində həlak oldu, erməni faşizminin qurbanı oldu. Gəncə şəhəri həm "Toçka-U", həm "SCUD" raketləri ilə atəşə tutulurdu. Biz bu məsələ ilə bağlı öz sözümüzü deyəndə Ermənistan tərəfi bunu inkar edirdi. Sonra da yalançı Ermənistan təbliğatı növbəti uydurma ortaya qoyaraq bəyan etmişdi ki, Azərbaycan özü öz şəhərlərini atəşə tutur. Görün nə dərəcədə alçaqlıq və vicdansızlıqdır. Necə ki, vaxtilə ermənilər deyirdilər, azərbaycanlılar özləri Xocalı soyqırımını törədiblər. Bu dəfə də ermənilər öz yalanlarının, necə deyərlər, qurbanlarına çevrilib. Çünki ballistik raketlərin trayektoriyası böyük dövlətlər tərəfindən izlənilir və hər kəs gördü ki, erməni ordusu gecə vaxtı dinc şəhəri, müharibə zonasından uzaqlarda yerləşən şəhərin məhz yaşayış məhəlləsini məqsədyönlü şəkildə atəşə tutub. Yəni, bu, təsadüfən açılan atəş deyildi, məqsədyönlü şəkildə yaşayış binasını vurmaq, Azərbaycan vətəndaşlarını öldürmək, Azərbaycan xalqının gözünü qorxutmaq, Azərbaycan rəhbərliyini torpaqların azad edilməsindən çəkindirmək məqsədi daşıyırdı. Əlbəttə, bu, hərbi cinayətdir və hərbi cinayət kimi dünya tərəfindən tanınmalıdır. Azərbaycan Ordusu müharibə dövründə belə cinayətlərə əl atmayıb, biz müharibəni ləyaqətlə aparmışıq, biz döyüş meydanında düşmənə cavab vermişik. Gəncə və digər şəhərlər - Mingəçevir, Bərdə, Tərtər, Goranboy, Ağdam rayonu, Füzuli rayonu, Naftalan bombalananda mən deyirdim ki, biz döyüş meydanında qisasımızı alacağıq. Biz ermənilərdən fərqli olaraq heç vaxt hərbi cinayətə əl atmarıq. Bu, bir daha xalqımızın böyüklüyünü göstərir, siyasətimizin düzgünlüyünü göstərir.

Ermənistan isə döyüş meydanında məğlub olaraq, 10 min fərari verərək, tamamilə biabır olaraq, görün, hansı çirkin əməllərə əl atıb bizi dayandırmaq istəyirdi. Amma Azərbaycan xalqı, hətta bu dağıntılar altından çıxan insanlar, qanın içində olan insanlar, öz yaxınlarını itirmiş insanlar da deyirdilər ki, biz ancaq qabağa getməliyik. Bizi heç kim və heç nə dayandıra bilməzdi. Biz bu günahsız insanların, şəhidlərimizin qisasını döyüş meydanında aldıq. Ermənistanı diz çökdürdük, məğlub etdik. Erməni faşizmini məğlub etdik və ədaləti bərpa etdik.

Bu gün, burada təməlini qoyduğum Memorial Kompleks böyük ərazini əhatə edəcək. Bu Memorial Kompleks təqribən dörd hektarda yaradılacaq. Dağıdılmış bu binalar olduğu kimi qalacaq. Yəni, bu yaddaş silinməməlidir. Bu erməni vəhşiliyini unutmamalıyıq. Müharibə başa çatıb. Bəli, biz deyirik ki, sülh olmalıdır. Ancaq heç vaxt erməni vəhşiliyini, erməni faşizmini unutmamalıyıq. Xocalı qurbanlarını unutmamalıyıq.

davamı səh. 3

# PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA YENİ GÜNƏŞLİDƏ "XANIM FATİMEYİ ZƏHRA" MƏSCİDİNİN YENİ BİNASINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞ OLUBLAR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində "Xanım Fatimeyi Zəhra" məscidinin yeni binasında yaradılan şəraitlə tanış olublar.

Məscidin qəzalı vəziyyətdə olan əvvəlki ikimərtəbəli binasında dindarların ibadəti üçün heç bir şərait yox idi. Məsciddə eyni vaxtda maksimum 500-550 nəfər ibadət edə bilirdi. İbadət edənlərin sayı çox olduğundan, məscidə üz tutanlar məcbur qalıb açıq havada ibadət edirdilər. Odur ki, qəsəbədə daha müasir və geniş məscid kompleksinin tikintisinə ehtiyac yaranmışdı.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, məscid kompleksi üçün müasir konsepsiya hazırlanıb və yeni bina inşa olunub.

İndi isə məsciddə, eyni zamanda, 1800 nəfərin ibadət etməsi mümkün olacaq. Yeni məscid kompleksində kişilərin və qadınların ibadəti üçün bütün zəruri şərait yaradılıb. Kompleksin inşası zamanı Abşeron məscidlərinin memarlıq üslubuna uyğun elementlərdən istifadə olunub. Buraya ağac materialından hazırlanmış şəbəkələr də daxildir.

Məscid kompleksini diametri 4 metr və hündürlüyü 42 metr olan iki minarə və hündürlüyü 25 metr olan günbəz bəzəyir.

Kompleksə dindarların dəstəmaz alması, dini ayinlərin keçirilməsi üçün xüsusi binalar da daxildir.

Məsciddə mərkəzləşdirilmiş havalandırma sistemi yaradılıb, ətraf ərazi yaşıllaşdırılıb.

Yeni Günəşli qəsəbəsində "Xanım Fatimeyi Zəhra" məscidinin müasir kompleksinin istifadəyə verilməsi bir daha sübut edir ki, İslam mədəniyyəti ilə bağlı tarixi-memarlıq abidələrinin, müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpası ölkəmizdə dövlət siyasətinin vacib tərkib hissələrindəndir.

# PREZİDENT İLHAM ƏLİYEV: BİZ ERMƏNİLƏRDƏN FƏRQLİ OLARAQ HEÇ VAXT HƏRBİ CİNAYƏTƏ ƏL ATMARIQ

əvvəli səh. 2

Gəncə qurbanlarını, digər şəhərlərimizin qurbanlarını heç vaxt unutmamalıyıq və unutmayacağıq. Onların müqəddəs ruhu qarşısında baş əyərək bir daha deyirik ki, onların qanı yerdə qalmadı. Onların yaxınları üçün bəlkə də bu, təsəlli ola bilər. Eyni zamanda, deyirik ki, biz müzəffər xalqıq, biz qalib dövlətik. Erməni faşizmini məğlub etdik. Elə etməliyik ki, erməni faşizmi bundan sonra heç vaxt baş qaldırmasın.

**- Cənab Prezident, bildiyimiz kimi, bu günlərdə Rusiyada erməni faşist Qaregin Njde haqqında filmin yayımı dayandırıldı, aradan qaldırıldı. Bu məsələni Azərbaycan dövlətinin apardığı uğurlu xarici siyasətin nəticəsi kimi dəyərləndirmək olarmı? Bu barədə də fikirlərinizi bilmək istərdik?**

- Mən hesab edirəm ki, ilk növbədə, Rusiya ictimaiyyəti bundan xəbərdar oldu və Rusiya ictimaiyyətinin təkidi nəticəsində bu biabırçı aksiya baş tutmadı. Ancaq o da həqiqətdir ki, ilk dəfə olaraq, bu məsələni siyasi müstəviyə gətirən mən olmuşam. Mən əvvəlki illərdə də dəfələrlə bu erməni faşistləri haqqında öz çıxışlarımda məsələ qaldırmışdım. Beynəlxalq təşkilatlar qarşısında, ölkələr qarşısında məsələ qaldırmışdım ki, faşistlərin qəhrəmanlaşdırılmasına imkan verməK olmaz. Cəllad Njde ilə bağlı mən MDB Zirvə görüşünün birində öz çıxışımda məsələni qaldırdım. Dedim ki, Njdeyə Ermənistanın paytaxtında - İrəvanda qoyulan abidə faşizmin təbliğatıdır. Buna son qoyulmalıdır. Bu adam faşist olub. Bu adam cəllad olub. Bu adam günahsız azərbaycanlıların və ondan sonra İkinci Dünya müharibəsi zamanı sovet ordusunun əsgərlərini, zabitlərini qətlə yetirib. Bu Njde faşistdir və bunu hər kəs bilməlidir. Ancaq Ermənistanda onun qəhrəmanlaşdırılması gedir. Əgər bu, təkcə əvvəlki faşist hakimiyyətlə bağlı olsaydı, dərd yarı idi. Ancaq əfsuslar olsun ki, indiki Ermənistan hakimiyyəti faşistləri təbliğ edir, onları müdafiə edir. Moskvada ermənilərin diaspor təşkilatının xətti ilə bu dözülməz aksiyanın keçirilməsi heç bir çərçivəyə sığmır. Çünki Rusiya özü faşizmin qəhrəmanlaşdırılmasına qarşı gedən mübarizədə ön sıralardadır, Azərbaycan kimi. Bu məsələ ilə bağlı Rusiya tərəfi ilə dəfələrlə fikir mübadiləsi olub. Prezidentlər səviyyəsində, digər vəzifəli şəxslər səviyyəsində, ictimai təşkilatlar səviyyəsində biz həmfikirik. Faşizmin baş qaldırmasına yol verməK olmaz. İkinci Dünya müharibəsinin tarixi ilə bağlı təhrifetmə cəhdlərinə son qoyulmalıdır. Bu siyasət dünyanı uçuruma aparacaq. Faşizmi qəhrəmanlaşdırmaq olmaz. Amma bir tərəfdən Ermənistan rəsmən bu fikirlərə qoşulsa da, faktiki olaraq Njde kimi faşistin qəhrəmanlaşdırılması ilə bağlı konkret addımlar atır. Bu günə qədər Ermənistanda, İrəvanda faşist Njdenin adını daşıyan küçələr, meydanlar, metro stansiyası var, ona böyük - altımetrlik abidə qoyulub. Bu abidə bu günə qədər sökülməyib.

Yəni, bu, nəyi göstərir? Onu göstərir ki, erməni faşizmi yaşayır. Bəli, İkinci Qarabağ müharibəsində, Vətən müharibəsində biz erməni faşizmini məğlub etmişik. Deyə bilərəm ki, erməni faşistlər indi əvvəlki illərdəki qədər fəal deyillər. Ancaq biz görürük ki, faşizm baş qaldırır, Ermənistanda baş qaldırır. Ermənistanın keçmiş faşist rəhbərləri, uşaq qatilləri Sarkisyan, Köçəryan baş qaldırırlar və yenə də meydan sulamağa çalışırlar. Biz onları məğlub etmişik. Onlar bizim qabağımızda diz çöküblər. Onlar tarixdə fərari kimi qalacaqlar. O cümlədən erməni xalqının tarixində Serjik Sarkisyan və Robert Köçəryan fərarilər kimi qalacaqlar. Çünki Azərbaycan Ordusu Şuşaya yaxınlaşdıqca onlar Xankəndidən qorxaqcasına, dovşan kimi qaçmışdılar. Amma indi Ermənistanda baş qaldırırlar, Rusiyada baş qaldırırlar. Rusiyanın paytaxtında erməni diaspor təşkilatının xətti ilə belə biabırçı aksiyanın təşkili dediyim sözlərin sübutudur. Biz erməni faşizmini məğlub etdik, ancaq o, məhv edilməyib. Biz bundan sonra da çalışacağıq ki, erməni faşizminin bütün təzahürlərini yer üzündən silək və buna gücümüz çatır. Ancaq gərək digər ölkələr də, beynəlxalq ictimaiyyət də bu məsələdə həmrəy olsun. Erməni faşizminin XXI əsrdə törətdiyi bu dağıntılar hamı üçün gərək bir nümunə olsun ki, faşizmin yaxşısı, pisi yoxdur. Erməni havadarları, Ermənistanın arxasında dayanan dairələr də bunu bilməlidirlər, dərk etməlidirlər və bizim tarixi missiyamızı qiymətləndirməlidirlər, biz hansı bəlanı məhv etdik. Biz təkcə öz torpağımızı azad etmədik, biz regionu, Cənubi Qafqazı bu vəhşixislətli qüvvələrdən təmizlədik. Yenə də deyirəm, indi onlar artıq boynubükük şəkildə yaşayırlar. Ancaq heç kim qarantiya verə bilməz ki, yenə də baş qaldırmayacaqlar. Biz heç vaxt imkan verə bilmərik ki, bizim bölgədə erməni faşizmi baş qaldırsın. Heç vaxt imkan verə bilmərik ki, Ermənistan yenə də Azərbaycan üçün potensial təhdidə çevrilsin. Əgər bunu görsək, onu yerindəcə məhv edəcəyik. Bunu hər kəs bilməlidir.

**- Cənab Prezident, AZƏRTAC-ın suallarını ətraflı cavablandırdığınız üçün Sizə təşəkkür edirik, minnətdarıq.**

- Sağ olun.




# Yeni Azərbaycan Partiyası: yeni proqramla möhtəşəm zirvələrə doğru

YAP Azərbaycanın ağır sosial-iqtisadi, siyasi və mənəvi-psixoloji böhranla üzləşdiyi dövrdə xalqımızın vətənpərvər insanlarının, ziyalıların təşəbbüsü və iştirakı ilə tarixi zərurətdən irəli gələrək yaranmışdır. 1992-ci il noyabrın 21-də Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə keçirilən təsis konfransında partiyanın proqram və nizamnaməsi qəbul olundu.

Partiyanın proqramında müstəqillik, dövlətçilik, qanunçuluq, azərbaycançılıq, vətənçilik, varislik, yaradıcı təkamül, konstruktiv əməkdaşlıq, vətəndaş həmrəyliyi, sosial ədalət kimi ideoloji prinsiplər müəyyən edildi. Proqramda hüquqi, demokratik, dünyəvi dövlətin və vətəndaş cəmiyyətinin, bazar iqtisadiyyatının inkişafı, milli-mənəvi dəyərlərin qorunması və Azərbaycanın dünya birliyində özünə layiqli yer tutmasına dair məqsədlər öz əksini tapdı.

Ötən illər ərzində YAP milli maraqlara əsaslanan fəaliyyət göstərməklə ictimai-siyasi proseslərdə mühüm rol oynamış, qarşısına qoyduğu məqsəd və vəzifələri uğurla yerinə yetirmişdir. Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışından sonra ölkəmizin inkişaf etməsi və onun dünya birliyində mövqeyinin möhkəmlənməsi YAP-a böyük nüfuz qazandırdı. "Yeni, müstəqil Azərbaycan uğrunda!" çağırışını proqramında irəli sürən YAP məhz Ulu Öndər Heydər Əliyevin apardığı məqsədyönlü siyasətin həyata keçirilməsində yaxından iştirak etməklə dövlət müstəqilliyinin dönməzliyinin təmin edilməsinə böyük töhfələr verdi.

YAP Azərbaycanın siyasi sisteminə xalqımızın mənafeyini təcəssüm etdirən güclü siyasi təşkilat kimi daxil olub. Partiya 30 ilə yaxındır ki, qarşısına qoyduğu məqsədlərə (dövlət müstəqilliyinin möhkəmləndirilməsi, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin, sosialyönümlü iqtisadiyyatın inkişafı, milli-mənəvi dəyərlərin qorunması və s.) nail olunmasında böyük nailiyyətlər əldə edib. Hazırda 800 min nəfərə yaxın üzvü olan partiya Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin aparılmasında, onun təbliğində yaxından iştirak edir.

Cəmiyyət daim yeniləşir, ictimai münasibətlərin inkişaf səviyyəsi yeni çağırışlar və reallıqlar yaradır. Bütün bunlar da öz növbəsində YAP-ın hakim partiya kimi qarşısında yeni tələblər və vəzifələr qoyur. Burada bir məqamı xüsusilə qeyd etməliyik ki, YAP həm cəmiyyətin irəliyə doğru, keyfiyyətcə yeni inkişaf mərhələlərinə daxil olmasını və onun mütərəqqi inkişafını təmin edən aparıcı siyasi qüvvə kimi çıxış edir, həm də yaratdığı yeni çağırışları və reallıqları özü tənzimləyərək, gələcəyə istiqamətlənmiş məqsəd və vəzifələr müəyyənləşdirir.

Məhz bundan irəli gələrək, YAP-ın 2021-ci il martın 5-də keçirilmiş VII qurultayında partiyanın qarşısına yeni hədəflər və vəzifələr qoyulmuşdur. YAP-ın Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qurultaydakı genişməzmunlu çıxışında partiyanın yarandığı vaxtdan indiyə kimi müstəqil dövlətçiliyin və demokratik siyasi sistemin möhkəmlənməsi, ölkəmizin davamlı inkişafı, milli birliyin və vətəndaş həmrəyliyinin təmin olunması istiqamətində göstərdiyi fəaliyyətlə bağlı dəyərli fikirlər irəli sürmüşdür. Prezident İlham Əliyevin dediyi kimi: "Partiyamızın VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisədir. Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Partiyamızın böyük ənənələri var".

Prezident İlham Əliyev qurultaydakı çıxışı zamanı YAP-ın müasir dövrün çağırışlarını özündə əks etdirən yeni proqramının hazırlanmasının vacibliyini bildirmişdir.

Qeyd edək ki, Azərbaycan dövlətinin bütün sahələrində əldə olunan uğurlar YAP-ın yeni proqramının hazırlanmasını şərtləndirən mühüm faktorlardır. Prezident İlham Əliyevin çıxışlarından irəli gələn vəzifələri rəhbər tutaraq və ölkəmizin davamlı inkişafı, Azərbaycanın xarici siyasət sahəsində strateji maraqları, dördüncü sənaye inqilabının ictimai həyata göstərdiyi təsirləri və 44 günlük Vətən müharibəsində şanlı qələbənin yaratdığı reallıqları nəzərə alaraq, YAP-ın "Biz birlikdə güclüyük!" devizi altında yeni proqramı işlənib hazırlanmış və partiyanın İdarə Heyətinin 29 dekabr 2021-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.

Prezident İlham Əliyevin apardığı siyasətin məqsəd və vəzifələri eyni zamanda onun sədri olduğu partiyanın məqsəd və vəzifələri deməkdir. Buna görə də Prezident İlham Əliyevin təsdiq etdiyi, cəmiyyətin müxtəlif sahələrinin inkişafını nəzərdə tutan milli prioritetlər, dövlət proqramları, konsepsiyalar, İnkişaf strategiyaları və fəaliyyət planlarındakı müddəalar partiyanın proqramında öz əksini tapmışdır.

Partiyanın yeni proqramı beş fəsildən - "Partiyanın inkişafı və uğurları", "Siyasi dəyərlər və prinsiplər", "Partiyadaxili münasibətlərin və partiyanın fəaliyyətinin əsasları", "Partiyanın əsas hədəfləri" və "Müzəffər liderlə Azərbaycanı yeni zirvələrə aparan güclü partiya" ibarətdir. Hər bir fəsil sosial-iqtisadi, siyasi, mənəvi-mədəni, ordu quruculuğu, xarici siyasət, vətəndaş cəmiyyəti və s. sahələri əhatə edən bölmələrə ayrılır. Hər bir bölmədə partiyanın qarşısında dayanan hədəflər və vəzifələr göstərilir.

YAP-ın proqramında partiyanın inkişaf tarixinə və uğurlarına nəzər salınır, onun Heydər Əliyev yoluna və irsinə sadiqliyi, qarşısına qoyduğu məqsəd və vəzifələri böyük məsuliyyətlə, layiqincə yerinə yetirdiyi vurğulanır. Hüquqi dövlətin və vətəndaş cəmiyyətinin, bazar iqtisadiyyatı münasibətlərinin inkişafı istiqamətində YAP-ın fəaliyyətinin tarixi-siyasi əhəmiyyəti qeyd olunur. Bildirilir ki, xalqımızın Heydər Əliyevə dərin inam və etimadı nəticəsində YAP yarandıqdan sonra respublikanın bütün bölgələrində onun təşkilatlanması prosesi başladı, partiyanın sıraları sürətlə genişləndi. Heydər Əliyevin müdrik siyasəti sayəsində müstəqil dövlət quruculuğunda əldə olunan uğurlar, Azərbaycanın dünya birliyində mövqeyinin möhkəmlənməsi YAP-ın xalq arasındakı nüfuzunu getdikcə artırdı.

Cənab İlham Əliyevin YAP-ın I qurultayında (20-21 dekabr 1999-cu il) partiyanın sədr müavini, II qurultayında (21 noyabr 2001-ci il) partiya sədrinin birinci müavini, III qurultayında (26 mart 2005-ci il) isə partiyanın sədri seçilməsi təşkilatın həyatında böyük tarixi hadisə oldu. 2003-cü, 2008-ci, 2013-cü və 2018-ci illərdə keçirilmiş prezident seçkilərində cənab İlham Əliyevin YAP-ın namizədi kimi qələbə qazanması partiyanın nüfuzunu daha da artırdı və onun sosial bazasını möhkəmləndirdi. Prezident İlham Əliyevin uzaqgörən və məqsədyönlü siyasəti nəticəsində Azərbaycanın əldə etdiyi uğurlar YAP-ın siyasi sistemdə, beynəlxalq partiyalararası münasibətlərdə mövqeyini daha da gücləndirdi.

Yeni proqramda ideya-siyasi varislik prinsipinə əsaslanmaqla partiyanın əvvəlki proqramında əksini tapmış və müasir dövrün tələblərinə cavab verən, cəmiyyətin ahəngdar inkişafını təmin edən ideoloji prinsiplər qorunub saxlanılmışdır. YAP demokratik siyasi dəyərlərə və prinsiplərə əsaslanır ki, onların içərisində Heydər Əliyev yolu müstəsna yer tutur. Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası özündə siyasi müdrikliyi, illərlə toplanmış böyük dövlətçilik təcrübəsini, qətiyyətli siyasi iradəni və Azərbaycanın hərtərəfli inkişafını nəzərdə tutan ideya-siyasi baxışları ehtiva edir. Bu siyasi xətt müstəqil dövlətçiliyin möhkəmlənməsini və inkişafını, xalqımızın sülh və əmin-amanlıq şəraitində yaşamasını şərtləndirir.

Milli maraqların üstünlüyü, güclü, müstəqil, hüquqi, demokratik dövlət, inkişaf edən şaxələndirilmiş iqtisadiyyat, idarəçilikdə və milli ideologiyada varislilik, azad insan, azad cəmiyyət, xalq-hakimiyyət vəhdəti, inkişaf etmiş vətəndaş cəmiyyəti, söz və mətbuat azadlığı, siyasi plüralizm, multikulturalizm və tolerantlıq kimi dəyərlər Heydər Əliyev yolunu səciyyələndirən əsas xüsusiyyətlərdir. Heydər Əliyev irsi Azərbaycanın bu günü və gələcəyi üçün həyati əhəmiyyət kəsb edən siyasi məktəb kimi özünü təsdiq etmişdir.

Ulu Öndərin siyasi kursunu Prezident İlham Əliyevin yaradıcı şəkildə, uğurla davam etdirməsi, onu yeniliklərlə zənginləşdirməsi ölkəmizin tərəqqisini və yüksək sosial rifah şəraitində yaşamasını təmin edir. Bütün bunların nəticəsində Azərbaycan dünyada davamlı inkişaf edən, regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasına mühüm töhfələr verən dövlət kimi tanınır.

YAP-ın mövqeyinə görə, siyasi idarəçilikdə və dövlətçilik şüurunda varislik prinsipi cəmiyyətin inkişafında əhəmiyyətli rol oynayır. Buna görə də partiyanın proqramında Azərbaycan xalqının müstəqil dövlətçilik ənənələrinin varislik əsasında qorunub saxlanılması əsas prinsiplərdən biri kimi qiymətləndirilir. Partiyanın 1918-ci il mayın 28-də müsəlman Şərqində qurulmuş ilk respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin demokratik ənənələrinə sadiq olduğu və onları yaşatdığı bildirilir.

YAP siyasi dialoqa partiyalararası münasibətlərdə əməkdaşlığı möhkəmləndirən mühüm faktorlardan biri kimi baxır. Partiyanın proqramında qeyd edildiyi kimi, siyasi həmrəylik şəraitində konstruktivliyi təmin edən mütərəqqi ideyalar formalaşır, yeni siyasi konfiqurasiya şəraitində siyasi partiyalar arasında əməkdaşlıq və həmrəylik möhkəmlənir. Xüsusilə, vətəndaş həmrəyliyinin və siyasi dialoqun mövcudluğu ümummilli məsələlərin həllində vacib əhəmiyyət daşıyır. Buna görə də Azərbaycanın tərəqqisini təmin edən amillərdən biri milli birlik və siyasi həmrəylikdir. Ölkəmizdə yeni siyasi konfiqurasiyanın yaranmasında və partiyalararası dialoqun möhkəmlənməsində fəal iştirakı, geniş beynəlxalq əlaqələri YAP-ın cəmiyyətdə mövqeyini möhkəmləndirir.

Partiyanın proqramında multikulturalizmin inkişafına və onun tərkib hissələrinə - milli kimliyin və mədəni müxtəlifliyin qorunması, mədəniyyətlərarası dialoqa sadiqlik, ölkəmizdə multikulturalizmin inkişafı sahəsində qazanılmış nailiyyətlərin beynəlxalq miqyasda təbliğinin gücləndirilməsi və s. böyük əhəmiyyət verilir ki, bu da təsadüfi deyildir.

davamı səh. 5

# YENİ AZƏRBAYCAN PARTİYASI: YENİ PROQRAMLA MÖHTƏŞƏM ZİRVƏLƏRƏ DOĞRU

əvvəli səh. 4

Çünki Azərbaycan dünyada mədəniyyətlərarası və dinlərarası dialoqun nəinki milli, eyni zamanda qlobal səviyyədə genişlənməsi üçün mühüm addımlar atan dövlət kimi tanınır. Buna misal olaraq, multikulturalizmin və tolerant dəyərlərin inkişafına həsr olunmuş xeyli sayda beynəlxalq tədbirlərə Azərbaycanın evsahibliyi etdiyini göstərmək olar. Milli-dini münasibətlərlə bağlı Prezident İlham Əliyevin apardığı siyasət xalqımız tərəfindən dəstəklənir, milli-etnik qruplar və dini konfessiyalar ümumi birgəyaşayış qaydaları əsasında özlərinin mənəvi dəyərlərini qoruyub saxlayırlar. Onlar azərbaycançılıq məfkurəsi ətrafında birləşməklə ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak edirlər.

Partiyanın proqramında demokratik ənənələrə əsas dəyərlərdən biri kimi baxılır, eyni zamanda göstərilir ki, "YAP dövlətin idarə olunmasında və partiyadaxili fəaliyyətin təşkilində demokratik prinsipləri əsas götürür, siyasətdə açıq və peşəkar münasibətlərin tərəfdarı kimi çıxış edir". YAP hüquqi dövlətin və vətəndaş cəmiyyətinin inkişafı üçün demokratik dəyərlərə böyük əhəmiyyət verir. Partiya hesab edir ki, demokratik siyasi münasibətlər dövlətin tərəqqisini şərtləndirən vacib amillərdəndir. Azərbaycanda aparılan genişmiqyaslı islahatlar dövlət idarəçiliyinin və siyasi sistemin təkmilləşməsində, iqtisadiyyatın inkişafında, əhalinin sosial müdafiəsinin gücləndirilməsində, xalqımızın milli-mədəni irsinin və dəyərlərinin qorunmasında böyük əhəmiyyət kəsb edir. Bu islahatlar Azərbaycanın gələcək inkişafında yeni uğurların bünövrəsini qoyur.

YAP-ın proqramında partiyadaxili münasibətlərin və partiya fəaliyyətinin əsasları dəqiq şəkildə müəyyənləşdirilir, onların peşəkarlıq, işgüzar münasibətlər, şəxsi inkişaf, sağlam rəqabət, etik davranış və milli dəyərlər, innovativ inkişaf və kreativlik, elmilik və müasirlik kimi meyarlara söykəndiyi göstərilir. Qeyd olunur ki, Azərbaycan xalqının maraqlarına cavab verən və mütərəqqi xarakter daşıyan müasir dəyərlərdən bəhrələnmək YAP-ın fəaliyyətinin əsaslarından biridir. Partiya digər siyasi təşkilatlarla və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın demokratik prinsiplər əsasında möhkəmlənməsinə üstünlük verir.

YAP-ın yeni proqramında "Heydər Əliyev irsinin təbliği və təşviqi", "Güclü iqtisadiyyat və davamlı inkişaf", "İnklüziv cəmiyyət, ədalətli sosial təminat və insan kapitalının inkişafı", "Şəffaflığın artırılması", "Vətəndaş cəmiyyətinin inkişafı", "Azərbaycan dili və dünya azərbaycanlılarının həmrəyliyi", "Mədəni irsin və milli-mənəvi dəyərlərin qorunması", "Vətəndaş həmrəyliyinin təminatı", "Milli maraqlar və xarici siyasət", "Ordu quruculuğu" və "İşğaldan azad olunmuş ərazilərə Böyük qayıdış"la bağlı hədəflər və onlara nail olmaq üçün vəzifələr göstərilmişdir.

Proqramda Azərbaycanı tərəqqiyə aparan Heydər Əliyev irsinin indiki və gələcək nəsillər üçün zəngin xəzinə, Vətənə, xalqa və dövlətə xidmət nümunəsi olduğu bildirilir. Xüsusilə gənc nəslin dövlətçilik və vətənpərvərlik ruhunda formalaşmasında Ulu Öndərin irsinin təbliğinin vacibliyi göstərilir. Heydər Əliyevin hələ sovetlər dönəmində respublikaya rəhbərlik etdiyi dövrdə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən böyük uzaqgörənliklə Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi yaşamasını təmin edəcək sosial-iqtisadi və milli-mənəvi bünövrə yaratdığı vurğulanır.

Proqramda ictimai-siyasi, sosial-iqtisadi və mənəvi-mədəni sferalarda, idarəetmə münasibətlərində və xarici siyasətdə hədəflər müəyyən edilərkən bu sahələrdə əldə olunmuş nailiyyətlər əsas götürülür. Güclü iqtisadiyyat və davamlı inkişaf naminə hədəflərin sırasına makroiqtisadi sabitlik və yüksək iqtisadi artım, uğurlu neft strategiyası, qeyri-neft sektorunun inkişafı, daxili və xarici təsirlərə dayanıqlıq, rəqəmsal inkişaf və nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, ətraf mühitin, ekoloji tarazlığın qorunması və s. daxil edilmişdir.

Əhalinin sosial müdafiəsinin təmin olunması və insan kapitalının inkişaf etdirilməsi Prezident İlham Əliyevin apardığı siyasətin prioritet istiqamətlərindəndir. Bu sahədə görülən işlərin nəticəsində Azərbaycanda xeyli sayda yeni iş yerləri açılır, əməkhaqları, pensiyalar və digər sosial ödənişlər artırılır, işsizlik və yoxsulluq səviyyəsi ildən-ilə azaldılır. Əhalinin gəlirlərinin artırılması istiqamətində atılan addımlar, o cümlədən əməkhaqlarının, pensiya, müavinət, təqaüd və digər sosial ödənişlərin məbləğlərinin layiqli səviyyəsinə nail olunması, əmək siyasəti və əməyin ödənilməsi sahəsində islahatların həyata keçirilməsi inklüziv cəmiyyətin, ədalətli sosial təminatın və insan kapitalının inkişafına böyük stimul verir. Bu uğurlardan çıxış edən YAP hamı üçün layiqli həyat səviyyəsinin təmin olunmasını əsas hədəflərindən biri hesab edir. İnklüziv cəmiyyətin inkişafı və yüksək sosial rifahın təmin olunması, paytaxt və regionların tarazlı inkişafı, XXI əsrin tələblərinə uyğun elm və təhsil, əhalinin sağlamlığının təmin olunması və yüksəkkeyfiyyətli səhiyyə, gender bərabərliyi və ailə institutunun inkişafı, gənclərin potensialının gücləndirilməsi və yaşlıların təcrübəsindən faydalanması sahəsində konkret vəzifələr müəyyən edilir.

İdarəetmə münasibətlərində şəffaflığın təmin edilməsi məsələsi YAP-ın proqramında xüsusi yer tutur. Bu sahədə vəzifələr müəyyən olunarkən şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə istiqamətində aparılan dövlət siyasətinin nəticəsində əldə edilmiş nailiyyətlərə əsaslanılır. Azərbaycanın "Açıq Hökumət Tərəfdaşlığı" beynəlxalq təşəbbüsünə ilk qoşulan dövlətlərdən biri kimi açıq hökumət prinsiplərinin təşviqinə böyük töhfə verdiyi vurğulanır. İnsan hüquqlarının və şəffaflığın təmin olunmasında, ictimai nəzarətin artırılmasında, korrupsiyaya qarşı mübarizədə və qanunvericiliyin təkmilləşdirilməsində "Açıq hökumət" və "Elektron-hökumət" platformalarının əhəmiyyəti göstərilir.

Azərbaycanda "Açıq hökumət" platformasının həyata keçirilməsinin idarəetmə sistemində şəffaflığı artıran vacib amillərdən biri olduğu vurğulanır və bununla bağlı partiyanın hədəfləri (idarəetmə münasibətlərinin dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməsi; dövlət xidmətlərinin göstərilməsində müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməsi; dövlət orqanlarının göstərdikləri xidmətlərin elektronlaşdırılması; maliyyə şəffaflığının təmin edilməsi) sadalanır.

Dövlət strukturlarında və dövlət xidmətlərinin həyata keçirilməsində informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə olunması və innovativ həllərin tətbiqi mühüm əhəmiyyət daşıyır. YAP bu sahədə görülən işlərin daha da təkmilləşməsinin vacibliyini nəzərə alaraq, vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstərilməsi, qarşılıqlı inteqrasiyanın təmin olunması sahəsində vahid yanaşmanın və standartların tətbiqi istiqamətində yeni hədəflər müəyyənləşdirmişdir. Bununla yanaşı, partiya idarəetmədə çevikliyi və şəffaflığı təmin edən ictimai nəzarətə böyük diqqət yetirir.

YAP ictimai nəzarətin həyata keçirilməsində vətəndaş cəmiyyəti institutlarının oynadığı rolu yüksək qiymətləndirir. Buna görə də partiya dövlət və yerli özünüidarəetmə orqanları ilə vətəndaş cəmiyyəti institutları arasında səmərəli qarşılıqlı fəaliyyətin genişləndirilməsi, dövlət orqan və qurumlarında kollegial qərarların qəbulu zamanı, dövlət komissiyaları və işçi qruplarda vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının təmsilçiliyinin və iştirakının təmin edilməsi, dövlət orqan və qurumları yanında yaradılmış ictimai şuraların fəaliyyətində səmərəliliyin artırılması, ictimai şuralarda müzakirə edilən məsələlərin əhatə dairəsinin genişləndirilməsi və s. hədəflərlə çıxış edir.

Korrupsiyanın qarşısının alınması, dövlət orqanlarının fəaliyyətində və özəl sektorda şəffaflığın təmin edilməsi, qanunvericiliyin təkmilləşdirilməsi və vətəndaş cəmiyyətinin inkişafına dair partiyanın hədəfləri müəyyən edilmişdir. Bundan əlavə, partiyanın proqramında Azərbaycan dili və dünya azərbaycanlılarının həmrəyliyi, xalqımızın milli-mədəni irsinin və mənəvi dəyərlərin qorunması, vətəndaş birliyinin təminatı, milli maraqlar və xarici siyasət, ordu quruculuğu kimi məsələlərə geniş yer verilmiş, bu sahələrdə qarşıda duran vəzifələr göstərilmişdir.

44 günlük Vətən müharibəsi Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini özündə əks etdirən mühüm tarixi hadisədir. Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın hərbi birləşmələrini "Dəmir yumruq" əməliyyatı ilə darmadağın etməsi və ölkəmizin ərazi bütövlüyünün bərpası xalqımızın milli qürur hissini özünə qaytardı. Müharibənin ilk günlərindən başlayaraq Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin əsgər və zabitləri ilə bir yerdə oldu, onlarda ruh yüksəkliyi yaratdı, xalqımız, o cümlədən konstruktiv mövqe tutan siyasi partiyalar da dövlət başçımızın apardığı siyasət ətrafında sıx birləşdi. Azərbaycan hərbçilərinin torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərdə şücaət göstərməsi, bu yolda şəhidlik zirvəsinə ucalması xalqımızın yenilməzlik, mətinlik və qəhrəmanlığının ifadəsi oldu, şanlı qələbə ilə Azərbaycan bütün dünyaya öz gücünü göstərdi.

Vətən müharibəsində qələbə bölgədə yeni geosiyasi və geoiqtisadi reallıqlar yaratmışdır. YAP-ın proqramında göstərildiyi kimi, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" 2021-ci il 7 iyul tarixli fərmanı bu kontekstdə mühüm tarixi-siyasi hadisə oldu. Qarabağ iqtisadi rayonunun yaradılması ilə "Qarabağ Azərbaycandır!" şüarı özünün siyasi-hüquqi təsdiqini tapdı. Şərqi Zəngəzur iqtisadi rayonu yaradılmaqla Azərbaycanın tarixi əraziləri arasındakı ənənəvi sosial-iqtisadi və mədəni bağlılığın bərpası istiqamətində mühüm addım atıldı.

Ermənistanın hərbi təcavüzü nəticəsində öz ata-baba yurdlarından köçkün düşən insanların doğma torpaqlarına qayıdışının təmin edilməsi ilə bağlı YAP-ın proqramında dəqiq hədəflər - layiqli yaşayışın bərpası üçün işğaldan azad olunmuş ərazilərdə geniş quruculuq işlərinin aparılması və dayanıqlı məskunlaşmanın təmin edilməsi, bu ərazilərin ölkənin ən abad guşələrindən birinə çevrilməsi, regionun iqtisadi potensialından səmərəli istifadə olunmaqla, əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması, regionun sürətli iqtisadi inkişafının təmin olunması üçün stimullaşdırıcı tədbirlərin görülməsi, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasının hazırlanması və həyata keçirilməsi müəyyən edilmişdir. İşğaldan azad olunmuş ərazilərdə hazırda geniş quruculuq işlərinin aparılması Vətənini sevən hər bir azərbaycanlıda böyük qürur hissi yaradır.

Bütün bunlar sübut edir ki, YAP möhtəşəm zirvələrə yol açan, dünənin, bu günün və gələcəyin partiyasıdır. YAP-ın yeni proqramı müasir dövrün çağırışlarını və ölkəmizin davamlı inkişafını nəzərə almaqla özündə mütərəqqi dəyər və meyarlar, prinsiplər, hədəflər və vəzifələri birləşdirir. İnanırıq ki, onların qorunması və yerinə yetirilməsi Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət kimi tərəqqisinə böyük təkan verəcək, onun dünya birliyində mövqeyini daha da möhkəmləndirəcəkdir.

Əminliklə deyə bilərik ki, YAP ümumxalq partiyası olaraq qüdrətli dövlət və yüksək rifah cəmiyyəti naminə üzərinə düşən missiyanı "Biz birlikdə güclüyük!" çağırışı ilə şərəf və ləyaqətlə yerinə yetirəcəkdir.

**Mübariz QURBANLI,**
Dini Qurumlarla İş üzrə
Dövlət Komitəsinin sədri,
Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü



# QALİB ALİ BAŞ KOMANDAN!

Bəli! Məhz Qalib Ali Baş Komandan!

Yaxın coğrafiyamızda bir sıra başqa ölkələrin Konstitusiyalarında uyğun olaraq Ali Baş Komandanları var. Amma Qalib və Qadir Baş Komandan yoxdur. Yalnız İlham Əliyev son 200 ildə ilk azərbaycanlı dövlət başçısı kimi torpaq aldı, Vətəni işğaldan azad etdi.

O, Heydər Əliyev yolunun ən böyük davamçısıdır.

"Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm"- ifadəsi İlham Əliyevin bütövlükdə xarakter cizgilərini, onun imkan və potensialını, böyük qabiliyyət və bacarığını ifadə edirdi.

İlham Əliyev məhz Ulu Öndərin bu dərin qənaətinin nəticəsidir ki, Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının hazırlanmasında, bu siyasətin dünya meydanında uğur qazanmasında və gerçəkləşdirilməsində, həmin sahədə müxtəlif layihələrin hazırlanmasında, çox çətin diplomatik tapşırıqların yerinə yetirilməsində fəal iştirakı, ölkəyə investisiya axınında mühüm rol oynadı.

Ölkədə iqtisadi islahatların həyata keçirilməsində, müstəqil Azərbaycanın xarici ölkələrlə iqtisadi və mədəni əlaqələrinin genişlənməsində, xüsusilə neft-qaz yataqlarının birgə işlənməsinə dair dünyanın qabaqcıl neft şirkətləri ilə tarixi müqavilələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri haqqında müqavilənin bağlanması və reallaşdırılmasında, Azərbaycan Respublikasının dünyaya inteqrasiyasında mühüm xidmətləri oldu...

Neftdən gələn gəlirlərin insan kapitalına çevrilməsi kimi bu fenomenal ideyanı çox məharətlə reallaşdıra bildi.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin rəhbəri kimi fəaliyyəti prespektivli bir siyasətçi kimi onun bütün imkanlarını geniş şəkildə büruzə verdi.

Avropa Şurasında Ermənistanın təcavüzkar, işğalçı dövlət kimi tanınmasında, erməni terrorçuluğunun beynəlxalq terrorizmin tərkib hissəsi olmasının sübuta yetirilməsində, nəzarətdən kənarda qalan Dağlıq Qarabağın narkotiklərin ötürücü məntəqəsinə və terror yuvasına çevrilməsinin Avropa və dünya ictimaiyyətinə çatdırılmasında misilsiz xidmətləri danılmazdır.

Gənclərlə bağlı siyasəti, sağlam gənclik yetişdirmək, bununla da xalqımızın sağlam gələcəyini təmin etmək üçün idmanı ümumxalq hərəkatına çevirərək böyük nailiyyətlər əldə etdi. Azərbaycanın beynəlxalq yarışlarda, idmanın müxtəlif sahələrində ön mövqelərə çıxaraq Bakını dünya üzrə mühüm beynəlxalq yarışların keçirildiyi mərkəzə çevirdi.

Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycanın Müzəffər Ordusu 30 illik işğala son qoydu. Beləliklə, düşmənin illərlə yaratdığı "məğlubedilməz ordu" mifi 44 gün ərzində bütün dünyanın gözü qarşısında fiaskoya uğradı, Ermənistan ordusu darmadağın edildi və "Dəmir yumruq" əməliyyatı Azərbaycanın Şanlı Qələbəsi ilə başa çatdı. Geniş dünyagörüşünə, dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə malik olan Ali Baş Komandan İlham Əliyev müharibə dövründə onlarla müsahibələr vermiş, bəzi ermənipərəst jurnalistlərin təxribat dolu suallarını tarixi faktlar və dəlillərlə cavablandırmışdır. Amerikalı məşhur jurnalist öz heyranlığını belə ifadə etdi: "Siz tarixi çox gözəl bilirsiniz".

Azərbaycan Prezidenti İlham Əliyev bir çox ölkənin və beynəlxalq təşkilatların fəxri adları və mükafatlarına layiq görülmüş, AŞPA-nın fəxri üzvü diplomu və medalı ilə təltif olunmuşdur.

İctimai-siyasi sabitlik ölkəmizin inkişafına təkan verən strateji faktordur. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən rasional daxili və xarici siyasət kursunun qanunauyğun nəticəsidir ki, bu gün Azərbaycan ictimai-siyasi sabitliyin yüksək səviyyədə təmin edildiyi ölkələr sırasındadır. Ölkəmizdəki ictimai-siyasi sabitlik həm də milli təhlükəsizliyin strateji qarantıdır.

Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik daxili islahatlar və uzaqgörən, məqsədyönlü xarici siyasət sayəsində Azərbaycan Cənubi Qafqazda lider dövlətə çevrilmişdir.

Həyata keçirilən rasional və praqmatik xarici siyasət kursu sayəsində bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı, inkişaf mənbəyi adlandırırlar. Ölkəmiz tərəfindən reallaşdırılan müstəqil və balanslaşdırılmış enerji siyasəti regionun və regionətrafı coğrafiyanın enerji təhlükəsizliyini təmin etməklə yanaşı, Azərbaycanı dünyanın enerji bazarında aparıcı ixracatçılardan birinə çevirib.

Türk dövlətləri arasındakı qarşılıqlı əlaqələrin genişlənməsi, türk dünyasının müasir dünyada özünəməxsus yerini tutması uğrunda müasir dövrün türk lideri kimi əvəzsiz xidmətlər göstərmişdir.

Azərbaycan demokratik inkişaf indeksinə görə yüksək səviyyədə qiymətləndirilən ölkələr sırasında yer alır. Demokratik dəyərlərin və təsisatların təşəkkül tapması, mütəmadi surətdə yenilənərək inkişaf etdirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə edilməsi kimi təməl strateji istiqamətlər müstəqil Azərbaycan dövlətinin milli siyasət kursunun əsasını təşkil etməkdədir.

Siyasi sahədə qazanılan nailiyyətlər Azərbaycanı beynəlxalq ictimaiyyətə daha yaxşı tanıtdırmaqla bərabər, dünyanın diqqətini respublikamıza yönəldə bilib. Bunun ən böyük təsdiqi 2011-ci ildə Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, 26 may 2011-ci il tarixində İndoneziyanın Bali adasında Hərəkata üzv olan dövlətlərin yekdil dəstəyini əldə edərək, QH-yə tam hüquqlu üzv qəbul olunması, 25-26 oktyabr 2019-cu il tarixində Bakı Sammitində Hərəkatda sədrliyin 2019-2022-ci illər üzrə Azərbaycan Respublikasına keçməsi və s. göstərmək olar.

Prezident İlham Əliyevin nəhəng fəaliyyətinin bir istiqaməti də respublikamızın tranzit imkanlarının genişləndirilməsi, bu məqsədlə Beynəlxalq Dəniz Limanının və Gəmiqayırma Zavodunun tikintisi, TRASECA, Şimal-Cənub, Şərq-Qərb dəhlizləri çərçivəsində görülən işlər, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, son 3 ildə Bakı–Tbilisi-Qars, Şimal-Cənub, TAP, TANAP kimi beynəlxalq əhəmiyyətli layihələrin reallaşdırılması o deməkdir ki, Avrasiyanın əsas tranzit ölkələrindən biri olaraq, Azərbaycan Şərq-Qərb ticarət, enerji-yanacaq və nəqliyyat-kommunikasiya əlaqələrinin mərkəzində dayanır. Bu mövqe getdikcə güclənir və ən başlıcası isə, dünyanın əsas qloballaşma və regional inteqrasiya mərkəzləri Azərbaycanı üçüncü minillikdə dünyanın həm alternativ enerji təminatçısı, həm də əsas tranzit ölkəsi kimi qəbul edir.

Ümummilli Lider Heydər Əliyevin müdrikcəsinə formalaşdırdığı dövlət-din siyasəti uğurla inkişaf etdirilir. Azərbaycan vicdan azadlığının və multikultural mühitin təmin edilməsi, yüzilliklər ərzində formalaşmış tolerantlıq ənənələrinin qorunmasına görə regionun lider dövlətinə çevrilmişdir. Ulu Öndərin əsasını qoyduğu bu xətti-hərəkat da İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.

Azərbaycan uzun illərdir ki, multikulturalizm dəyərlərinin, sülh, əməkdaşlıq və qarşılıqlı anlaşmanın təşviqi üçün müxtəlif beynəlxalq tədbirlərə ev sahibliyi edir. Hər il Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu da Azərbaycanın ev sahibliyi etdiyi dünya səviyyəli tədbirlərdəndir. Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq forumlar, konfranslar, dinlərarası dialoqla, multikulturalizmlə, humanitar məsələlərlə bağlı tədbirlər, əlbəttə ki, respublikamızı dünyaya nümunəvi ölkə kimi təqdim edir, eyni zamanda Azərbaycanda dinlərarası münasibətlərin gələcəkdə də sağlam şəkildə inkişaf etməsinə şərait yaradır.

Dünyada dini ayrı-seçkiliyin gücləndiyi və dini zəmində qarşıdurmaların artdığı bir dövrdə tolerantlıq Azərbaycanda dövlət siyasətinin tərkib hissəsidir. Fəxrlə deyə bilərik ki, bu gün bütün dünyada demokratik dəyərlərdən biri kimi təbliğ olunan dini dözümlülük xalqımızın əsrlər boyu formalaşan və dünyaya örnək olan xarakterik xüsusiyyətidir və bu, inkaredilməz həqiqətdir. Bu gün Azərbaycanda kilsə və sinaqoqlarla yanaşı, bir çox xristian, yəhudi dini tədris müəssisələrinin sərbəst şəkildə fəaliyyət göstərməsi və onlara dövlət tərəfindən lazımi dəstək verilməsi də buna əyani sübutdur.

Prezident İlham Əliyevin COVID-19 pandemiyasına qarşı mübarizədə beynəlxalq səylərin birləşdirilməsi, bu məqsədlə dünya miqyasında birliyin, həmrəyliyin və məsuliyyətin gücləndirilməsinə hədəflənmiş təşəbbüsünün beynəlxalq ictimaiyyət tərəfindən birmənalı olaraq dəstəklənməsi bir daha göstərdi ki, Azərbaycan dövlətinin və onun lideri cənab İlham Əliyevin nüfuzu və reytinqi olduqca yüksəkdir. Azərbaycan Prezidenti qlobal baxışlı lider kimi qəbul olunur.

Müzəffər Azərbaycan ordusunun Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı Ermənistanın işğalçı silahlı qüvvələrindən azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirməsi onu Azərbaycan tarixinə əbədi olaraq qızıl hərflərlə həkk etdi.

Əziz və möhtərəm prezident!

60 yaşınız qutlu olsun! Vətənimizin və millətimizin daha da çiçəklənməsi və qüdrətlənməsi naminə Sizə uzun ömür, can sağlığı və xoşbəxtlik diləyirik!

**Səyyad Aran,**
*Filologiya elmləri namizədi,*
*yazıçı-publisist*

# DÖVLƏT KOMİTƏSİNDƏ CƏNUBİ QAFQAZ VƏ GÜRCÜSTAN YEVANGELİK-LÜTERAN KİLSƏSİNİN YENİ YEPİSKOPU İLƏ GÖRÜŞ OLUB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov yanvarın 17-də Cənubi Qafqaz və Gürcüstan Yevangelik-Lüteran kilsəsinə yeni təyin olunmuş yepiskop Roef Bareyn Binhop ilə görüşüb. Görüşdə kilsənin keçmiş yepiskopu Markus Şox və Almaniyanın Yena şəhərindəki Yevangelik lüteran dini icmasının üzvü, Xilaskar Yevangelik Lüteranların Bakı dini icmasının pastoru Lemke Qothard Günter Valter də iştirak edib.

Azərbaycandakı dini tolerantlıq mühiti və dövlətin bu istiqamətdə həyata keçirdiyi siyasətə diqqət çəkən Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov ölkəmizdə milli, dini dözümlülüyün tarixi ənənələrimizə əsaslandığını və cəmiyyətimizin tələbi olduğunu bildirib. Vurğulayıb ki, ölkəmizi fərqləndirən cəhət tarixboyu bu coğrafiyada yaşayan bütün dinlərin və etnosların təmsilçilərinin bir-birilərinin mədəni və mənəvi baxışlarına hörmət göstərmələridir. Bütün tarixi dövrlər ərzində kəsilməyən dövlətçilik ənənəsi, dəyərlərin cəmiyyətdə yüksək mənəvi keyfiyyət kimi hakim mövqeyi, digər dinlərin daşıyıcılarına münasibətdə tolerantlıq və birgəyaşayış vərdişləri bizim həyat prinsiplərimizin əsasında dayanır.



Komitə rəsmisi qeyd edib ki, hazırda din pərdəsi altında gedən siyasi çəkişmələr, dini zəmində baş verən münaqişələr baxımından Azərbaycanda tolerantlığın milli-mənəvi dəyərlərimizin önəmli hissəsi kimi qorunub-saxlanılması xüsusilə diqqət mərkəzindədir.

Ölkəmizdə 37-i qeyri-islam olmaqla 971 dini icmanın dövlət qeydiyyatına alındığını bildirən sədr müavini dini qurumların dövlətin diqqət və qayğısı ilə əhatə olunduqlarını deyib.

Cənubi Qafqaz və Gürcüstan Yevangelik-Lüteran kilsəsinin yepiskopu Markus Şox ölkəmizdə bütün dini konfessiya nümayəndələrinə eyni ehtiramın göstərilməsinin əyani şahidi olduğunu vurğulayıb. Markus Şox uğurlu multikulturalizm və tolerantlıq modeli, dinlərarası münasibətlər sərgiləyən Azərbaycanın bu sahədəki nailiyyətlərinin bütün dünyada maraq doğurduğunu deyib. O, eyni zamanda ölkəmizdəki lüteran icmasının fəaliyyətinə göstərilən dəstəyə görə məmnunluğunu ifadə edib.

Öz növbəsində Cənubi Qafqaz və Gürcüstan Yevangelik-Lüteran kilsəsinin yeni yepiskopu Roef Bareyn Binhop səmimi qəbula görə təşəkkürünü bildirərək respublikamızdakı müxtəlif dini icmalarla sıx əməkdaşlığın və dostluğun təqdirəlayiq olduğunu vurğulayıb.

Həmçinin görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# MƏNƏVİ DƏYƏRLƏRİN TƏBLİĞİ FONDU ÖTƏN İL ƏRZİNDƏ DƏ DİNİ ETİQAD SAHƏSİNDƏKİ FƏALİYYƏTİNİ UĞURLA DAVAM ETDİRİB



Mənəvi Dəyərlərin Təbliği Fondu (MDTF) ötən il ərzində də ölkəmizdə dini etiqad sahəsində maarifləndirmə işinin aparılmasına, mənəvi dəyərlərin qorunmasına və inkişafına, dövlət-din münasibətləri sahəsində məqsədli proqramların hazırlanmasına və həyata keçirilməsinə, dini qurumların vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətinə, habelə bu sahədə sosial layihələrin reallaşdırılmasına dövlət dəstəyini təmin edib.

Bu barədə Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov AZƏRTAC-a müsahibəsində deyib.

Fondun dini etiqad sahəsindəki fəaliyyətindən danışan Mehman İsmayılov bildirib ki, MDTF-nin fəaliyyətinin başlıca istiqamətlərindən biri dini qurumların vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətinə dəstək verməkdir. Belə ki, hər il Qafqaz Müsəlmanları İdarəsi (QMİ) tərəfindən rəsmi olaraq məscidlərə təyin edilmiş 1000 nəfərdən çox din xadiminə (imam, imam müavini və mütəvəlli) Fond tərəfindən aylıq maddi dəstək göstərilir. Maddi dəstək müvafiq olaraq imamlara 630 manat, imam müavinlərinə 490 manat və mütəvəllilərə 350 manat məbləğində müəyyən edilib. Bundan əlavə ötən il Qafqaz Müsəlmanları İdarəsinə 1,3 milyon manat məbləğində vəsait ayrılıb.

Həmçinin Prezident İlham Əliyevin 8 iyul 2021-ci il tarixli Sərəncamı ilə Fonda ayrılmış 100 min manat vəsait hesabına 23 qeyri-islam dini icmalarına maddi dəstək göstərilib.

Ötən il ərzində Fond tərəfindən dini etiqad sahəsində fəaliyyəti uğurla davam etdirilib. Belə ki, bir sıra islam və qeyri-islam dini icmalarının maarifləndirici layihələrinə maddi dəstək göstərilib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi ilə Alban-Udi Xristian dini icmasının üzvləri "Xocalı soyqırımı - əsrin faciəsi" adlı layihə çərçivəsində işğaldan azad edilmiş Xocavənd rayonunun Tuğ kəndindəki Alban məbədini ziyarət ediblər.

Bundan başqa Fondun maliyyə dəstəyi və təşkilatçılığı ilə Alban-Udi Xristian dini icmasının üzvləri, eləcə də digər dini konfessiya nümayəndələri may ayında Pasxa bayramı və 27 Sentyabr – Anım Günü ilə əlaqədar Kəlbəcər rayonunda yerləşən Xudavəng məbədini və Laçın rayonu ərazisində yerləşən qədim alban məbədi "Ağoğlan" monastırını ziyarət ediblər.

Mənəvi Dəyərlərin Təbliği Fondu Müqəddəs Ramazan ayı münasibətilə müsəlman dini icmalarla birlikdə "Şəhid ailələrinə Ramazan sovqatı" aksiyası həyata keçirib. Aksiya çərçivəsində ölkənin 12 şəhər və rayonunda ümumilikdə 720 nəfər Vətən müharibəsi şəhidinin ailəsi ziyarət edilib və onların hər birinə 100 (yüz) manatlıq alış-veriş kartı hədiyyə edilib.

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak edən 6 nəfər dini icma sədri və din xadiminin hər birinə Fond tərəfindən 500 manat məbləğində birdəfəlik maddi yardım göstərilib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun maliyyə dəstəyi və bir sıra müsəlman dini icmalarının təşkilatçılığı ilə ölkənin 25 şəhər və rayonunda ötən ilin Məhərrəm ayı çərçivəsində doğum günü olan ümumilikdə 700 nəfərdən çox Vətən müharibəsi şəhidlərinin ailələri ziyarət edilib. Ölkənin müxtəlif şəhər və rayonlarında təşkil edilən ziyarətlərdə şəhidlərimizin ailələri ilə görüşlər keçirilib, onlara müxtəlif məişət avadanlıqları, o cümlədən "Qurani-Kərim" kitabları hədiyyə edilib və şəhidlərin ruhuna dualar oxunub.

Ötən ilin oktyabr-noyabr ayları ərzində Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən din xadimləri və dini icma sədrləri (İslam və qeyri-islam) arasında "Dinmilli birliyimizin təminatçısı kimi" adlı müsabiqə elan edilib. 8 Noyabr – Zəfər Gününə həsr edilmiş müsabiqədə din xadimləri və dini icma sədrləri şeir, hekayə və məqalə formatında yazılarla iştirak ediblər. Qaliblər pul və digər hədiyyələrlə mükafatlandırılıb.

Noyabrın 4-də Mənəvi Dəyərlərin Təbliği Fondu və İçərişəhər "Həzrət Muhəmməd" məscidi dini icmasının birgə təşkilatçılığı ilə 8 Noyabr – Zəfər Gününə həsr edilmiş "Zəfərin mübarək, Azərbaycan" adlı konfrans keçirilib. Konfransda şəhid övladları, onların ailə üzvləri, ictimaiyyət və media nümayəndələri iştirak ediblər.

Fond "Vineyard Azərbaycan" xristian dini icması ilə birlikdə 16 noyabr – "Beynəlxalq Tolerantlıq Günü" münasibətilə Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında "Tolerantlığın Zəfəri" adlı tədbir təşkil edib. Rəsmi və bədii hissədən ibarət olan tədbirdə qonaqların çıxışları dinlənilib, tanınmış musiqiçilərin ifasında vətənpərvərliklə bağlı musiqilər səsləndirilib, müxtəlif dini kompozisiyalar və milli rəqslər ifa edilib. Tədbirdə tolerantlıq nümunəsi kimi ölkəmizdəki dini konfessiyaların rəhbərləri Azərbaycan üçün birgə dualar edib.

# MÜDAFİƏ NAZİRLİYİ İLƏ DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ ARASINDA İLLİK FƏALİYYƏT PLANI İMZALANIB

Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında 2022-ci il üçün birgə fəaliyyət planı imzalanıb.

Sənədə əsasən keçiriləcək tədbirlərin yeri, icra vaxtı, icraya məsul qurumlar və şəxslər müəyyənləşdirilib.

İl ərzində Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində təşkil ediləcək görüşlərdə azərbaycançılıq ideyası, milli-mənəvi, mədəni dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi, radikal dini cərəyanlar və ekstremizmlə mübarizə, mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında əməkdaşlıq və digər mövzularda tədbirlər keçiriləcək.

# S.A.SALAHLININ "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Səyyad Adil oğlu Salahlı "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 14 yanvar 2022-ci il

# DÖVLƏT KOMİTƏSİNDƏ SƏYYAD SALAHLININ 70 İLLİK YUBİLEYİ İLƏ BAĞLI TƏDBİR KEÇİRİLİB



Yanvarın 14-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) sədrin birinci müavini Səyyad Salahlının 70 illik yubileyi ilə bağlı tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan Komitə sədri Mübariz Qurbanlı Səyyad Salahlı haqqında xoş arzularını bölüşməklə yanaşı, onun həyat yolundan, ictimai-siyasi fəaliyyətindən, yaradıcılığından bəhs edib. Bildirib ki, yubilyar ziyalı, prinsipial, mövqeyində sabit və yüksək mədəniyyətə, insani keyfiyyətlərə, eləcə də dərin biliklərə malik bir şəxsdir. Ulu Öndərimiz Heydər Əliyevin dövlət quruculuğu siyasətində yaxından iştirak edib, eyni zamanda Yeni Azərbaycan Partiyasının təşkilatlanmasında, ideoloji fəaliyyətində fəal rol oynayıb. Onun Milli Məclisin üzvü və diplomat olarkən gördüyü işlərə də toxunan Komitə sədri qeyd edib ki, dövlət-din münasibətlərinin inkişafında, milli-mənəvi dəyərlərin təbliği istiqamətində də xidmətləri olan Səyyad Salahlının çoxşaxəli, uğurlu fəaliyyəti Prezidentimiz İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib, bir sıra dövlət təltiflərinə layiq görülüb.

Komitə sədrinin müavinləri Səyavuş Heydərov, Gündüz İsmayılov, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov, şöbə müdirləri Vüqar Səlimov, Elnarə Kərimova çıxışlarında yubilyarla bağlı fikirlərini bölüşərək, Səyyad Salahlını jurnalist, siyasi xadim kimi milli dövlətçilik maraqlarımızın möhkəmlənməsinə verdiyi töhfələrdən bəhs edib və ona uğurlar arzulayıblar.

Sonda çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı tədbirin təşkili və iştirakçıların xoş sözlərinə görə təşəkkürünü bildirib.



## Hörmətli Səyyad Aran!

Sizi – tanınmış ictimai-siyasi xadimi və yazıçı-publisisti anadan olmağınızın 70 illiyi münasibətilə təbrik edirik.

Siz 15 yanvar 1952-ci ildə İmişli rayonunun Qaradonlu kəndində müəllim ailəsində doğulmusunuz.

1972-ci ildə o zamanki Pedoqoji İnstitunun filologiya fakültəsini bitirərək Aşağı Qaralar (İmişli) orta məktəbində əmək fəaliyyətinə başlamısınız. Hərbi xidmətdən qayıtdıqdan sonra (1973) 1990-cı ilə qədər 1 saylı İmişli şəhər orta məktəbində pedoqoji fəaliyyətinizi davam etdirmisiz. Dərs hissə müdiri, tərbiyə işləri üzrə direktor müavini, İmişli rayon XTŞ-nın müdiri vəzifələrində işləmisiniz. Sonra Bakıya gələrək əvvəl AMEA-nın "Elm" qəzetində, sonra isə "Səs" qəzetində Baş redaktorun I müavini kimi jurnalistika sahəsində çalışmısınız.

Əbədi yaradıcılığa şeirlə başlamısız. (1966) Sonra nəsr sahəsində fəaliyyət göstərmisiniz. Müxtəlif illərdə "Körpü" (Gənclik, Bakı 1983) "Soyuq Günəş" (Təbriz, Bakı 1996) "Aklanma kağıdı" ("Təmizlik kağızı" Türkiyə, İstanbul, 2010) "Sandıqda qalan muştuluq" ("Qanun" Bakı, 2012) "Sazaq" (Vektor, Bakı 2016) "Başdaşı" (Elm və təhsil, Bakı 2020) "Mezar taşı" (Zengin Yayınçılıq, İstanbul 2020) "Zaloq" (Belqrad CZГR Joван 2020) "Доход Гейбуллı", Rusiya, Ridero 2021, "Oyanma" (Təbriz, Azər-Turan 2021) "Партiя в тенiс у Кюдру" (Zaporiжжия, Украина 2021) "İrəvana gedən yollar" (Elm və təhsil, Bakı 2021) kitablarınız çap edilmişdir. Əsərləriniz rus, fars, serb, türk, Ukrayna, erməni (sovet dövründə) alman, ingilis dillərinə tərcümə edilib.

Siz həm də 1990-2005-ci illərdə aktiv siyasətlə məşğul olmusunuz, Yeni Azərbaycan Partiyasının qurucularından birisiniz, Müstəqil Azərbaycanın I və II çağırış MM-in deputatı seçilmisiniz, 2006-2010-cu illərdə diplomatik sahədə də çalışmısınız, Türkiyənin İstanbul şəhərində Azərbaycanın Baş konsulu vəzifəsində işləmisiniz, 2009-cu ildə "İlin diplomatı" tituluna layiq görülmüsünüz.

"Qızıl qələm" media mükafatı, "Tərəqqi medalı" (2005), Beynəlxalq "Rəsul Rza" mükafatı almısınız.

Siz Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının fəxri professorusunuz. Türk dünyası mədəniyyətinə və elminə xidmətlərinizə görə həmin akademiyanın Beynəlxalq "Qızıl ulduz" ordeni ilə təltif olunmusunuz.

Əbədi tənqidin fikrinə görə Sizin yaradıcılığınız psixoloji nəsrin orijinal nümunələrindəndir. Yaradıcılığınızda zamandan da, zamanədən də üstdə duran insandır, qəhrəmanlarınız bir qayda olaraq mənəviyyat sahibidirlər. Müstəqillik yollarında ictimai-siyasi və əbədi fəaliyyətinizi uğur və şərəflə davam etdirirsiniz.

Hörmətli Səyyad müəllim!

Sizi bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə uzun ömür, cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

# SƏYYAD ARANIN 70 İLLİYİ QEYD OLUNUB



Yanvarın 14-də Azərbaycan Yazıçılar Birliyində yazıçı, publisist, ictimai-siyasi xadim, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini, Əməkdar jurnalist Səyyad Aranın (Salahlı) 70 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açıq elan edən AYB katibi, yazıçı Elçin Hüseynbəyli bildirib ki, Səyyad Aran öz yaradıcılığı ilə həmişə diqqət mərkəzində olan qələm adamlarından biri kimi oxucuların rəğbətini qazanıb.

AYB-nin sədri, Xalq yazıçısı Anar yubilyarın uğurlu yaradıcılığı ilə insani keyfiyyətlərinin paralelliyi barədə öz fikirlərini bölüşüb. S.Aranın bədii əsərlərində ortaya qoyulan məsələlərin aktuallığı barədə söhbət açan Xalq yazıçısı, xüsusən, müəllifin "Təmizlik kağızı" əsəri haqqında düşüncələrini dilə gətirib.

Daha sonra Anar Səyyad Aranı AYB-nin xüsusi diplomu ilə təltif edərək yubilyara xoş arzularını bildirib.

Millət vəkili, akademik Nizami Cəfərov isə S.Aranın bədii yaradıcılığı, dil-üslub xüsusiyyətlərinin zənginliyi barədə söhbət açıb.

Daha sonra Seyran Səxavət, Vaqif Yusifli, Əsəd Cahangir, Tehran Əlişanoğlu, Nikpur Cabbarlı, Elçin İsgəndərzadə, Yunus Oğuz və Qəşəm Nəcəfzadə yubilyar barədə fikirlərini bölüşərək ona təbriklərini çatdırıblar.

Mahmut Kaşğari Fondunun rəhbəri Elxan Zal Qaraxanlı öz ürək sözlərini dilə gətirərək Səyyad Arana fondun təsis etdiyi mükafatı təqdim edib, ona həyat və yaradıcılığında uğurlar arzulayıb.

# SİYASƏTÇİ. ALİM. YAZIÇI

**Bu sözlər yetmiş yaşını qeyd etdiyimiz Səyyad Arana aiddir. Bura deputat və diplomat sözlərini də əlavə etmək olardı, amma onda başlıq çox uzun çıxardı, Səyyad 1995-2005-ci illərdə Milli Məclisin üzvü, sonra İstanbulda ölkəmizin Baş konsulu olmuş, hazırda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavinidir. 2005-ci ildə filologiya elmləri namizədi elmi dərəcəsini almışdır.**

Amma mənimçün Səyyad Aran ilk növbədə yazıçıdır. İstedadlı yazıçıdır və - bu, vacibdir - abırlı yazıçıdır. İstedadlı yazıçıların bəzilərini abırlı saymaq çətindir. Abırlı insanların bir qismi də - təəssüf ki, istedadlı deyillər.

Səyyadın abırlılığı - ömrü boyu hansı vəzifəni tutmasından, hansı mövqeyə çatmasından asılı olmayaraq özünü təvazökar, sadə, nəcib və məsuliyyətli aparmasıdır. Səyyadın yazıçı istedadını ilk dəfə çox illər öncə oxuduğum "Soyuq günəş" kitabında duydum. Bu kitabda sonralar Türkiyədə də nəşr olunmuş "Təmizlik kağızı" povestini xüsusi qeyd etmək istərdim.



Müharibə illəri və repressiyalar dövrü haqqında bizim ədəbiyyatımızda da, rus ədəbiyyatında da, tatar ədəbiyyatında da dəyərli ədəbi əsərlər yazılıb. Tatar ədəbiyyatını özəlliklə ona görə vurğulayıram ki, bir neçə il bundan əvvəl tatar yazıçısı Güzel Yaxinanın "Züleyxa gözünü açır" romanını maraqla oxumuşdum. Romanda bir tatar kəndinin repressiya illərində başına gələn müsibətlər təsvir edilir.

Stalin dövrünün repressiya faciələrindən bəhs edən əsərlərin çoxunda ziyalıların başına gələn bəlalardan söz açılır. Yanılmıramsa, rus yazıçısı Tendryakovun "Bir kisə buğda" povestində də Güzəl Yaxinanın romanında olduğu kimi bu illərin kənd əzabları qələmə alınır. Tendryakovun romanında bir kisə buğdaya görə əsərin qəhrəmanı ağır cəzalara məhkum edilir.

Şəhər, ya kənd yazıçısı yoxdur, bu doğrudur. Amma kənd həyatını, ya şəhər mühitini təsvir edən əsərlər var. Bu da həqiqətdir. Azərbaycan ədəbiyyatında İsa Hüseynovun, Əkrəm Əylislinin, Mövlud Süleymanlının povest və hekayələrində müharibə dövrünün Azərbaycan kəndi canlı boyalarla təsvir edilib. Səyyad Aranın "Təmizlik kağızı" povestində isə həm müharibə dövrünün, həm də repressiyaların təsirli səhnələrini görürük. Əgər Tendryakovun povestində personaj bir kisə buğdanın "qurbanı" olursa, "Təmizlik kağızı"nda Kərim traktoru qəzaya uğrayanda cəzalandırılır. "Özü başını sarıyıb qanı bir təhər kəsmişdi. Qabırğasının ağrısına isə dözə bilmirdi. Yazıq zar-zar zarıyırdı. Əsas traktor idi. Yüz Kərim kimilər qurban olsun bir traktora, Kərimlər nə qədər, gör traktor var? Hanı?"

Tendryakovun "Bir kisə buğda"sında da, Səyyadın traktorçusunda da, Rəsul Rzanın "Balaca qız və sarı dana" şeirində də epoxanın, dövrün, o dövrdə insan dəyərlərinin, daha doğrusu, dəyərsizliyinin damğası vurulub.

Çox illər qabaq oxuduğum "Təmizlik kağızı"ndan aldığım ümumi təəssürat hələ də xatirəmdən silinməyib. Şəhərlərdə olduğu kimi, kəndlərdə də insanların günahsız ola-ola cəzalandırılmaq vahiməsi. Repressiyaların yalnız ayrı-ayrı ailələri deyil, ümumiyyətlə, insanların mənəvi varlıqlarını şikəst etməsi. İnsanların tək rəsmi məmurlardan – raykomdan, ispolkomdan, prokurordan, milisdən, enkavededən qorxması yox, adi adamların bir-birindən çəkinməsi, şübhələnməsi və bir-birini qabaqlayaraq bir-birlərindən danos vermələri o dövrün səciyyəvi davranışı idi. Bu dəhşətli mərəz uşaqlara da sirayət edirdi. Lap çocuq yaşlarında olan uşaqlar da "bizimkilərə", "qırmızılara", "stalinçilərə" və "ağlara", "xalq düşmələrinə" bölünürlər, bir birləriylə ölüm-dirim "davası" aparırlar və əsərin qəhrəmanı balaca Eldar da belə bir "döyüşün" qurbanı olur. Və - bu da o zamanın çox dəqiq göstəricisidir - "qırmızılar" da, "ağlar" da, "stalinçilər" də, "xalq düşmənləri" də Stalinə inanır, ona pərəstiş edir, onun yolunda bir-birlərini qırırdılar. Günümüzə qədər davam edən bir ictimai bəlanın çox dəqiq ifadəsi...

Çoxdan oxuduğum povestdən iki kiçik detal da yadımda qalmışdı və yaddaşımı yoxlamaqçün əsəri yenidən vərəqləyib o yeri tapdım. Repressiya olunmuş ailənin qadını sürgün edilmiş ərinin sağ olduğunu biləndə "Şükür! - deyir - deməli, hələ sağdı. Balam yenə atasının canına and içəcək, qəbrinə yox".

Elə bir bu cümlə milli düşüncə örnəyinin dəqiq ifadəsidir. Povestdən bir əyani təşbehi də xatırlayırdım. Qıvrılıb yatmış xal-xal gürzəni müəllif "elə bil bir neçə balaca velosiped təkərini üst-üstə yığmışdılar" bənzətməsiylə gözlərimiz qarşısında əyani şəkildə canlandırır.

Səyyad Aranın yeni əsərlərindən birini - "İrəvana gedən yollar" romanını, təəssüf ki, bir az gec oxudum. Bəlkə də əsəri çıxan vaxt deyil, 44 günlük zəfərimizdən sonra oxumağımın öz mənası varmış. Roman sanki bu tarixi qələbənin ərəfəsində, ona hazırlıq kimi, xalqımızın, döyüşçülərimizin ürəyinə əminlik vəd edən ismarış kimi, eyni zamanda Lələtəpə uğurunun davam etmədiyinə təəssüf hissiylə yazılmışdır. Şükür ki, romanda ifadə olunmuş təəssüfə, nisgilə, "niyə sona qədər getmədik" gileyinə həyatın özünün yazdığı Roman cavab verdi.

Məncə, bu "İrəvana gedən yollar"ın içində üç müxtəlif janrda yazılmış üç ayrı əsər var. Birinci hissə sanki 44 günlük qələbədən sonra hamının gördüyü, şahidi olduğu vandalizm mənzərələrini - tar-mar edilmiş evlərin, kəsilmiş ağacların, talan olunmuş torpağın dəqiq təsviridir, İkinci hissə mənim fikrimcə, tamam başqa səpkidə yazılmış publisistik ricətdir. Rauf - "şair" Qarabağ məsələsinin başlanması, davamı, bu qarşıdurmada hansı xarici qüvvələrin iştirakı barədə ətraflı və dürüst məlumat verir. Bu, təbii ki, mənim subyektiv fikrimdir, məncə, həmin parça dəyərli mətn kimi ayrıca bir kitabda yer ala bilərdi. Onda romanın (!) məhz roman kimi janr bütövlüyü də pozulmazdı. Çünki bu parça roman estetikasıyla yox, publisist yazı səpkisində qələmə alınıb.

Və nəhayət, əsərdəki üçüncü qat - yəni canlı insan xarakterlərini, talelərini əks etdirən epizodlar roman janrına tam uyğundur. Lələtəpə uğrunda döyüşlərin müfəssəl təsviri, ümumi sözlərlə yox, dəqiq ayrıntılarla çatdırılması Səyyad Aranı oxuculara hərbi yazarı kimi də tanıdır. Səyyad Aran yubileyi ilə əlaqədar Tehran Alışanoğlunun yazdığı məqalədəki fikirlə mən də razıyam. Səyyad Aran son əsərləriylə özünü müharibə mövzusunda peşəkar yazıçı kimi də təsdiq edir. Bu fikrə öz arzumu da əlavə etmək istərdim ki, görkəmli nasirimizin yeni yazısı məhz 44 günlük zəfər döyüşlərini əks etdirən əsər olsun.

Yazımın əvvəlində "istedadlı yazıçı" təbirinə "abırlı insan" sözlərini əlavə etməyim onunla bağlıdır ki, Səyyad Aran ədəbi aləmdə heç kəsin uğuruna qısqanmır, hər kəsin yerini bilir. Həm özündən əvvəl gələnləri, həm öz nəsildaşlarını, həm də daha gənc nəslin qabiliyyətli nümayəndələrini obyektiv qiymətləndirir. Bu məlum həqiqətdir ki, istedadlı adam heç vaxt başqasının istedadına həsəd çəkməz, uğuruna qısqanmaz, yaradıcılığına xor baxmaz, qələmdaşının hər yaxşı əsəri çıxanda özünü görməməzliyə vurmaz.

Səyyad Aranın "altmışıncılar" haqqında xoş sözləri, onlara nəcib münasibəti əsl yazıçı əxlaqının bariz örnəyidir. Başqa bir görkəmli nasirimiz Mövlud Süleymanlı haqqında monoqrafiya yazması - mənimçün çoxlarına örnək ola biləcək dərsdir. Səyyad Aranın ədəbiyyatımızın müqəddəs və əbədi ocağı Azərbaycan Yazıçılar Birliyinə saf və dürüst münasibəti də çox önəmlidir.

Uzun illər Yazıçılar Birliyinin nəsr seksiyasına namuslu və cəfakeş yazıçımız Gülhüseyn Hüseynoğlu rəhbərlik etmişdi. Onun vəfatından neçə il keçəndən sonra katibliyin bu vəzifəyə məhz Səyyad Aranı məsləhət görməsi heç də təsadüfi qərar deyildi və əminəm ki, Gülhüseyn müəllimin də ürəyincə olardı.

Səyyad Arana bu işində də, başqa ictimai və siyasi fəaliyyətində də - təbii ki, ilk növbədə bədii yaradıcılığında da yeni-yeni uğurlar diləyirəm. Hamımızı sevindirəcək uğurlar.

**ANAR**
Xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri

# TACIN QAYTARILMASI




- Aaaaauuuuu...

...Qurd səsiydi...

Çox da uzaqdan gəlmirdi...

Gecə gündüz kimi işıqlıydı. Heç bir əziyyətsiz hətta iynə saplamaq olardı.

Daha bir ulartı eşidildi. - Aaaaooooıııı...

- Qart canavardı. Dəstək verir. Bir yerdədilər. İnsan iyini duyublar. Çoxdular...

Füzulidən olan Fazil çoxbilmişlik elədi. Yerli şəraiti yaxşı bilən, Birinci Qarabağ müharibəsinin veteranı kimi onu dəstəyə bir neçə gün idi bələdçi götürmüşdülər. Özü israr etmişdi. Hərbi rəhbərlik: - Xeyri olar, - deyə razılıq vermişdi.

Hamı hər ehtimala qarşı yan-yörəsinə boylandı. Əlbəttə, qurd-zad gözə dəymirdi. Əsgərlərin reaksiyası şərti refleksvari bir hərəkət idi.

Dəstənin hərəkət ritmi əvvəlki qaydasındaydı. Səbirli, ehtiyatlı, inamlı.

- Hərdənbir buralara ova gəlirdik. Bu yerlərə demirəm, seyrəklik olan tərəflərə. Allah o günü göstərməsin ki, meşədə tək olasan. Yoxsa qorxudan zəhrin yarılar, o dünyalıq olarsan.

- O dünyalıq olandan sonra hardan biləcəksən?

- Əşşi, məsəlçün deyirəm dəə... Qoyasan hər şeyə mız qoyalar...

Fazilin cırnaması, sinəsinə-başına qapaz vurması əsgərlərin sümüyünə düşürdü. Komandirdən sonra ən yaşlı o idi. Tipik kəndistan nümayəndəsiydi. Sadəlövh, xıltsız, bababozu, ürəyi açıq, hamıya inanan, bütün əsgərlərə "əmioğlu" deyən - elə onun özünə də həmin xitabla müraciət edirdilər - böyük qardaş!

Bu dəfə qurdların bir neçəsi ağız-ağıza verib ulaşdılar. Səs dalğa-dalğa cəngəlliyə yayılaraq hamının içindən keçib getdi. Əsgərlər bir-birinə baxıb gülümsədilər. Görünür, canavarlar yaxınlıqlarında çoxlu adam olduğunu hiss etmişdilər, onu da anlamışdılar ki, hücum etsələr, dişləri qana batmayacaq.

Kimsə təəccübünü, bəlkə də həyəcanını gizlədə bilmədi:

- Bu nədi, əə?

- Özümüzünkülərdir. Narahat olmayın - kimsə mənalı şəkildə münasibət bildirdi. Bilənlər başa düşüb gülümsədilər, bilməyənlər fikrə getdilər.

Çətinliklə irəliləyirdilər. Əvvəlcə ağac budaqlarını, kolluqları əlləri ilə aralayır, sonra ayaqlarının altına baxaraq ehtiyatla addım atırdılar. Komandir əlində kompas hamıdan öndə gedirdi.

Xəbərdarlıq eləmişdilər ki, dabanlarını, pəncələrini usdufca yerə bassınlar. İti qələmələr, qurumuş ağac budaqları botinkaları nə qədər möhkəm olsa da, bıçaqdan betər barmaqlarını doğrayar, nəticədə həmişəlik şikəst olarlar. Əsgərlər bu xəbərdarlığa bacardıqları qədər əməl etməyə çalışırdılar.

Bəlli yol, cığır yox idi, əvvəlcədən mövcud olan bir yolla getmirdilər, yolu özləri "çəkirdilər" - çınqılsız, qırsız, bitumsuz.

Uzun illər insan ayağı dəyməyən bu yerlər sıx meşələr, çay yataqları, qayalıqlardan keçirdi.

Azərbaycan ordusu dərin planlama əməliyyatı nəticəsində Şuşaya 3 istiqamətdən hücuma keçmişdi. Birinci istiqamət Xankəndi-Şuşa yolunu bağlamaq idi. İkinci istiqamət Laçın-Şuşa yolunu bağlamaq idi. Üçüncü istiqamət Daşaltıdan Şuşaya qalxışı yerinə yetirmək və şəhərə girişi təmin etmək idi.

Ay hərdənbir buludların arxasında itirdi. Bu zaman yer-göy zülmətə qərq olurdu. Cığırı, izi səhv salmamaq üçün döyüşçülər astadan qarşıdakı yoldaşlarının adlarını çəkirdilər cavab alanda əmin olurdular ki, bəlli istiqamətdən aralanmayıblar, düz gedirlər. Yoxsa yolu azıb düşmənin üstünə çıxardılar.

Hərəkət məhdudiyyəti get-gedə çətinləşirdi. Həm qatı qaranlıq, həm də sıx duman dəstəni bada verərdi. Hətta kor adamlar da belə yeriməzdilər. Kim sürüşüb yıxılsaydı, onu axtarıb tapmaq ən ümidsiz bir iş olardı. Əsgərlər bir-birinin ətəyindən, kürəklərindəki yük çantasından yapışmışdılar. Komandirdən əmr gəldi. "Hamı öz yerində dursun. Hərəkət dayandırılır".

Sükut qulaq batırırdı. Deyəsən, yaxınlıqda düşmən əsgərləri qalmamışdı. Bəlkə də bir azdan onların yerinə kimlərsə gələcəkdi, ya da növbə dəyişikliyi olacaqdı. Amma səs-səmir duyulmurdu. Heç uzaqdan da texnika səsi eşidilmirdi. Hər iki tərəfdə ölü sükut hökm sürürdü. Bəzən əsgərlərə elə gəlirdi ki, qulaqları batıb, kar olublar. Yumruqlarını qulaqlarına vururdular. Qulaqları ağrıyırdı, bunu hiss edirdilər, amma eşitmirdilər. Görməkdən isə söhbət gedə bilməzdi. Hamı "baxar kor" olmuşdu.

Bir azdan bədirlənmiş Ay yenidən dünyanı nura bələdi. Hamının qırışığı açıldı. Həyat eşqi, qələbə həsrəti təzədən əsgərləri səfərbər etdi. Nə qəribədir, deyəsən, qulaqları da açıldı. Gülümsəyərək bir-birlərinə baxdılar. Yenə hamının dadına Fazil yetdi: - Sən ölmüyəsən, dedim ta dünyanın axırıdır. Elə bildim Məlikməmmədin düşdüyü quyunun dibindəyəm. Mənim qardaşdarım heylə döyül haa... İşıq, sənə qurban olum.

Qurdların növbəti xorundan sonra əsgərlər komandirlərinin üzündə qəribə bir məmnunluq və təbəssüm gördülər. Çox intizarda qalmadılar. Onların marağını hiss edən komandir özü izahat verdi:

- "Qurd ağzı mübarək olar" - deyib babalarımız. Bu, yaxşı əlamətdir. Əməliyyatımız uğurla bitər, inşallah!

Hamı çox xoşnud oldu. Dəstədəkilər komandirin sözlərini başdan-ayağa bir-birlərinə ötürdülər.

Əməliyyat sirrini yalnız uzun şərid kimi uzanıb gedən bu kolonun xüsusi təyinatlıları bilirdilər. Ərgünəşin ətəklərindən başlayaraq ən öndə dəstə komandiri tez-tez əlindəki kompasa baxaraq Azərbaycan əsgərlərini Şuşaya aparırdı. Əməliyyat olduqca məxfi hazırlanmışdı. Xüsusi Təyinatlı Qüvvələrin ən say-seçmə döyüşçüləri seçilmişdilər.

Azərbaycan Silahlı Qüvvələrinin Şuşaya hücumu üçün cənub-qərb və şimal-şərq istiqamətində iki güclü birlik yaranmışdı. Düşmən mövqelərinin arxasına sızma əməliyyatından öncə Quru Qoşun qüvvələrinin aldadıcı manevr döyüşləri başlandı. Erməni qüvvələri parçalandı, çaşqınlıqdan lazımsız yerə güllələri dağa-daşa səpələdilər. XTQ qüvvələri onları bir-bir dənləyib axırlarına çıxdılar. Sağ qalanlar canlarını götürüb qaçdılar.

Düşmən hərbi kontingentini və döyüş texnikasının əsas böyük hissəsini Azərbaycan Ordusunun motoatıcı qüvvələri ilə döyüşmək üçün səfərbər edərək Şuşa yaxınlığındakı Şuşakənd və Daşaltı istiqamətlərində toplamışdı.

XTQ Şuşa-Laçın yolundan əvvəl, yüksəlikdə olan erməni postunu ələ keçirdi. Bu, 1553 yüksəkliyi idi. Bu yüksəklik ələ keçiriləndən sonra Daşaltı tam olaraq Azərbaycan Ordusunun nəzarətinə keçdi. Əgər bu yüksəklik ələ keçirilməsəydi, əsgərlərmizin hərəkət fəaliyyəti düşmən tərəfindən daim nəzarət altında qalacaqdı. Şuşa əməliyyatının tez və uğurla başa çatması çox ciddi şəkildə uzana bilərdi.

Əsas tapşırıqlardan biri də düşmənin təminat yolunun bağlanması idi. Ermənistandan Laçın yolu ilə mütəmadi hərbi texnika və canlı qüvvə yardımı gəlirdi. Ona görə də Laçın-Şuşa-Xankəndi yolu nəyin bahasına olur-olsun, bağlanmalı idi.

Yüngül silahlarla yola düşmüşdülər. Tarixi-memarlıq şəhəri olan Şuşaya ağır texnika və artilleriya ilə girmək Ali rəhbərlik tərəfindən məsləhət görülməmişdi.

davamı səh. 11

# DQİDK YANINDA İCTİMAİ ŞURANIN NÖVBƏTİ İCLASI KEÇİRİLİB

Yanvarın 12-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuranın növbəti iclası keçirilib.

Cari ildə görüləcək işlərə həsr olunmuş iclasda Komitənin əməkdaşları və DQİDK yanında İctimai Şuranın təmsilçiləri ilə yanaşı, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında İctimai Şuraların üzvləri iştirak ediblər.

Sədr müavini Gündüz İsmayılov Dövlət Komitəsinin fəaliyyət istiqamətləri, ideoloji sahədə dinlə bağlı üzləşdiyimiz problemlər, dövlət-din münasibətlərinin tənzimlənməsi qaydaları və digər məsələlər ətrafında geniş təqdimatla çıxış edib. Dini kimliyimizin-milli kimliyimizə qarşı qoyulması, dinin siyasiləşdirilməsi, din pərdəsi altında, dindən sui-istifadə edilərək İslamın Azərbaycançılığa qarşı qoyulması, "dindarlığın" artması ilə məzhəbçiliyin də güclənməsi, eləcə də xurafat meyillərinin artması, dini təhsilin dünyəvi təhsilə qarşı qoyulması, qadın hüquqlarının məhdudlaşdırılması kimi tendensiyalara diqqət çəkən G.İsmayılov bu kimi arzuolunmaz hallara qarşı mübarizədə intensiv təbliğat,



güclü təşkilatlanmanın önəmi barədə danışıb. Prezident İlham Əliyevin müvafiq Sərəncam və Fərmanı ilə Azərbaycan İlahiyyat İnstitutunun və Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasını bu sahədə atılan strateji addımlar kimi dəyərləndirib.

DQİDK yanında İctimai Şuranın sədri Sevinc Alızadə ideoloji sahədəki bəzi çatışmazlıqlara qarşı mübarizədə, gənclərin milli ruhda, Azərbaycançılıq prinsipləri əsasında formalaşmasında əlaqəli qurumların İctimai Şuraların koordinasiyalı şəkildə fəaliyyət göstərməsinin zəruriliyini qeyd edib.

Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Günel Səfərova və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın üzvü Kəmalə Aşumova təmsil etdikləri şuraların fəaliyyət planında öz əksini tapan ortaq problemlərə qarşı gələcəkdə birgə əməkdaşlıq edilməsini müvafiq istiqamətlərdə maarifləndirmə işinin daha da sürətlə aparılmasında çox vacib amil kimi qiymətləndiriblər.

Cari məsələlərin müzakirəsi ilə yanaşı, 2022-ci il ərzində fəaliyyətin daha səmərəli təşkili ilə bağlı həyata keçirələcək tədbirlərə dair fikir mübadiləsinin aparıldığı iclasda DQİDK yanında İctimai Şuranın üzvləri Rauf Zeyni, Çingiz Bayramov, Vasif Sadıqlı təkliflərlə çıxış ediblər.

# TACIN QAYTARILMASI

əvvəli səh. 10

Həm də seçdikləri istiqamətdən ağır texnika ilə gəlmək mümkün deyildi. Üstlərində tapanca, avtomat, bıçaq var idi. Şuşanı qəfil hücumla, əlbəyaxa döyüşlə almaq əmri verilmişdi. Tapşırıq hamıya aydın idi. Şuşanın qədim siması qorunmalı, köhnə şəhərin tarixi görünüşünə xələl gəlməməli idi.

Səssiz yeriyirdilər. Bircə ayaq altında qalıb çırtıltı ilə sınan quru budaqların, saralmış xəzəllərin xışıltısı eşidilirdi.

Birdən kiminsə: - Oy!.. Zibilə qalasan! - deyib sızıldadığı eşidildi.

- Nə baş verdi? - Bölmə komandiri təşvişlə arxaya boylandı.

- Deyəsən, İbadətin ayağına qələmə girdi, - kimsə İbadətdən betər sızıldayaraq dilləndi. Elə bil öz ayağına girmişdi. "Allah, sən saxla".

- Yardım edin! - komandir əmr verdi.

Tibbi personal dəstənin axırında idi. İbadət: - Onlar gələnə qədər qanım axıb qurtarar, - dedi. - Kömək edin, ayağımı botinkadan çıxarım. Özüm özümə əlac edəcəm. Bilirəm...

Dostları köməyə tələsdilər. Botinkanı dartıb çıxartdılar. Tez kaskanı başından götürüb ayağındakı patavaları dartıb çıxartdı. Qana bələnmiş ayağı qızıl balıq kimi titrəyirdi. Kaskanın içində patavanın birini yandırdı, külünü yarasının üstünə qoydu. O biri ilə yaralanmış ayağını sarıdı. Yoldaşları yanan əskinin ətrafında dövrələmə durdular ki, kənardan baxanda işıq görünməsin. Bütün dəstə dayanmışdı. İbadətin rəngi qaçmışdı. Kərim yavaşca soruşdu:

- Çox ağrıdır?

- Yox, qorxuram general məni geri göndərər. Şuşanın qapısının ağzından geri dönmək... ölərəm...

- Deyəsən, həkimlər gəlirlər.

İbadət intizarla dostlarına baxırdı. Birdən onlar da geri qayıtmağı məsləhət bilsələr...

Bayaqdan mərd, mətin görünən İbadət qorxuya düşdü. Bölmə komandiri indi əsas söz sahibi olacaq. Böyük komandir İbadətin vəziyyətini soruşsa, onun cavabı həlledici ola bilər...

Üzünü bölmə komandirinə tutdu. Çəkinə-çəkinə dedi:

- Nazim, qardaşımsan, indi həkimlər gəlib yaramı dərmanlayıb sarıyacaqlar. Dəstədən ayrılmaq istəmirəm. Güllə dəyməyib, yaralanmamışam. İndiki vəziyyətdə belə şeylər adi haldır. Həm də "Yaşma" adıma yaraşdırmaram. Bunu sənə izah etməyim artıqdır... Yeriyə biləcəm. Narahat olma... Söz verirəm ki, heç kimə yük olmayacam.

Hə... Əsas məsələ bu idi: heç kimə yük olmamaq. Döyüş şəraiti deyildi. Hələ ki, yol gedirdilər - cəngəllikləri yara-yara. Ehtiyatlı olmaq lazım idi. Amma İbadəti də qınamaq olmazdı. İş olanda olur... Bu, ehtiyatsızlıq da deyildi. Qəzavü-qədər idi.

Eləydi... Amma hamının nigaranlığı o idi ki, yürüş ləngiyə bilər, qrafikdə nəzərdə tutulmuş vaxtda lazım olan məkana yetişə bilməzlər, əməliyyat pozular.

Bir nəfəri geri göndərmək elə də problem deyil. Amma İbadətin yanına kimi qoşacaqsan? Heç kim getmək istəməz. Şuşanı almağa gedirlər! Neçə ildən bəri gözlənilən gün gəlib. Bu qələbədə iştirak etmək ilahi sevinc, şəhid olmaq da cənnəti satın almaq deməkdir. Belə səadətdən kim özünü məhrum edər? Kimə desən, Allah göstərməsin, intihar edər. Durduğun yerdə qana düşərsən. Hələ İbadətin mənəvi durumu. Belə açıq deyər ki, özüm qayıdıram. Heç kəs mənimlə getməsin. Yoxsa özümü vuraram. Qurdlara yem olmaq bundan min pay yaxşıdır.

Azərbaycan ordusu mühüm strateji əhəmiyyəti olan ərazilərini - Suqovuşanı, Cəbrayılı, Hadrutu, Füzulini, Zəngilanı, Qubadlını azad etmişdi. Ən vacib rayonlardan biri Ağdam idi. Ermənilər əsas zərbəni ordan gözləyirdilər. Azərbaycanın Ali Baş Komandanı və Ordu rəhbərliyi uzaqgörənlik edərək Füzulinin yuxarısındakı meşəlikdən təzə cığır açaraq Şuşa üzərinə gedirdilər. Şuşa namus, qeyrət məsələsiydi, nəyin bahasına olur-olsun, alınmalıydı. Həm də bacardıqları qədər az itkiylə. Bu müharibədə ən prinsipial, baş məqsəd Şuşanın fəthiydi.

Düşmənlər buradan yol olmadığını bilirdilər. Keçilməz cəngəllikləri Azərbaycan ordusunun yararaq Şuşanın sıldırım qayalıqlarına çıxacağına inanmırdılar. Qayalar sürüşkən və dümdüz idi. Heç alpinistlər dırmaşa bilməzdilər. Ancaq qərar məhz belə idi və nəyin bahsına olur-olsun, tapşırıq yerinə yetirilməliydi. Hamı məhz bu ovqatdaydı. İkinci bir fikir, plan-filan yox idi. Bütün dəstə bu məqsədə köklənmişdi.

Tibbi personal İbadətin yarasını özü demişkən, necə lazımdı qaydasına qoydu. Pəncəsini yerə basanda ayağı azca ağrısa da, bu ağrı o ağrıdan deyildi. Gülümsəyərək Nazimə baxdı:

- Ağrımır, qardaş! Yeriyə bilərəm.

Elə bil raport verirdi. Nazim əsgərini başa düşdü: - Allaha şükür!

Yenə qurdların ulartısı meşəni başına götürdü. Sirli, vahiməli xor nə qədər qorxulu olsa da, bu dəfə əsgərlərin tükü də tərpənmədi, artıq öyrəncəliydilər.

Fazilin replikası qulaqları dırmaladı.

- Ayə, bu qurdlar bizim nəyimizdi? Söz dilimin ucundadı e...

- Tüpür yerə, görəcəksən.

- Ehhh... Məzə qılmayın... Bilən desin. Ürəyim partladı.

Kimsə saymazyana replika atdı.

- Atanın əmisi nəvələri.

Hamı içindən gələn qəhqəhəni boğmaq üçün ağzını tutdu. Çoxu ağzıüstə yerə sərildi. Neçəsinin üz-gözünü tikan, qurumuş ağacların yerə tökülmüş sərt budaqları qanatdı... Hər halda səs eləmək lazım deyildi, baxmayaraq ki, düşmən eşidə bilməzdi. Hər halda... Bir də gördün külək səsi götürüb apardı. Ehtiyatlı oğulun anası ağlamaz. Hərbin öz qayda-qanunu var.

Əvvəlcə Fazilin nə dediyini anlamadılar. Hamı bir-birinə baxdı. "Nəyi soruşur?". Heç kimdən səs çıxmadı.

Fazil daha da cinnəndi...

- Ehh!..Ruslarınkı ayıdır, almanlarınkı qartaldır...

Yaxasını, başını didişdirdi, papağını iki-üç dəfə başından götürüb tərini sildi təzədən keçəlinə keçirdi, elə bil qaynayan qazanın köpünü alırdı.

Bayaq "Özümüzünkülərdir!" deyən astadan dilləndi: - Totem.

- Ay sənə quzu kəsim, komandir, hə, hə, onu soruşurdum.

Aydınlıq gətirən XTQ-nin zabiti idi.

Fazil həm də dəstənin məzəsiydi. Sükut uzun sürəndə, döyüşüçülər darıxanda hamı onu axtarırdı. Demirdilər bir anekdot danış, söz de. Sadəcə baxıb gülümsəyirdilər. Fazil də fitini bilirdi. Heç kimi qırmırdı. Ağzı açılan kimi təptəzə bir anekdot hamının əhval-ruhiyyəsini ala buluda qaldırırdı. Hər kəs öz-özünə indicə eşitdiyi anekdotu ya bərkdən, ya da ürəyində təkrar edib yenidən uğunurdu. Gərilmiş yayı elə ustalıqla yumşaldırdı ki...

- Ay dədəmizin, babamızın totemi! Gəl düş qabağa, düz-əməlli yolla gedək, əziyyətmiz az olsun. Bu aralığı siz hamıdan yaxşı tanıyırsız. Axırda da sənə iri bir qoç kəsərəm, dərisini də soyaram. Razı olmaram ki, o qoçu türklü yeyəsən. Sonra da üzündən öpüb hörmətlə yola salaram.

Kimsə canavarın əvəzindən dilləndi.

- Sonra da sənin o keçəl başını üzüb o biri dostlarıma ərməğan apararam.

Bütün eşidənlər uğunub getdi. Fazili tanıyanlar bir daha onun keçəl olduğunu xatırlayaraq qurdun ağzında başını təsəvvür edib qəşş edirdilər.

Fazil zərrə qədər də alınmadı. Əksinə, əcdadının rəmzinə hüsn-rəğbətini bəyan etdi:

- Qurbandı ona! Yırtıcı olsa da əsl kişidir. Yoxsa ermənilər kimi?

Əhval-ruhiyyə tam qaydasındaydı. Sıra əvvəlki ahənglə irəli yürüyürdü.

Bir azdan sanki ilahidən səda gəldi. Komandirin xoşbəxtlikdən titrəyən səsinə qəhər də qarışmışdı.

- Qardaşlar! Şuşanın qala divarlarının ətəyindəyik!

**Səyyad Aran**
*Filologiya elmləri namizədi, yazıçı-publisist*



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İllərin keşməkeşli sınaqlarından üzüağ çıxmış, bir əsrdə iki dəfə müstəqilliyini elan etməklə heç bir buxovu qəbul etmədiyini göstərmiş Azərbaycan xalqı bu müharibədə də mərdliyi və qəhrəmanlığı ilə bütün dünyanın diqqətini bir daha öz üzərinə çəkdi. Əminliklə demək olar ki, bu məğrurluğun əsasında xalqımızın ədalətsizliklə qətiyyən razılaşmaması, özünün bütün sülhpərvər yönləri ilə yanaşı, hərbi qüdrətini məhz məqamında dəmir yumruğa çevrilməklə göstərməsi, dolayısı ilə "mövzu Vətəndirsə, qalan hər şey təfərrüatdır" deyə bilməsi durur.*

*İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər - şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq cəmiyyət olaraq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*

## Abbasov Müşviq Qabil oğlu



Şəhid Abbasov Müşviq Qabil oğlu 1970-ci il aprelin 16-da Ağdam rayonunun Abdal Gülablı kəndində anadan olub. Orta təhsilini bitirdikdən bir müddət sonra Qarabağ müharibəsi başlayıb və 2 qardaşı ilə birgə Müşviq də könüllü olaraq həmin müharibədə iştirak edib. O, uğurlu döyüş yolu keçib, bir çox hərbi əməliyyatda xüsusi fədakarlığı ilə seçilib. Abbasovlar ailəsi məcburi köçkün düşdükdən sonra bir müddət Sabirabadda, Mingəçevirdə, daha sonra Bakıda məskunlaşıblar.

Ağdam, Abdal-Gülablı həsrəti, eləcə də ağır qaçqınlıq həyatı Müşviqi və qardaşlarını rahat buraxmayıb. Üç oğul atası olan Müşviq hələ körpəlikdən onlara vətənə sevgi aşılayıb, həmçinin keçmiş döyüşçü kimi silahla davranmağı öyrədib. O, gec-tez torpaqlarımızı düşməndən azad edəcəyimizə, qələbə çalacağımıza ümidini itirməyib.

2020-ci ilin iyulunda Tovuz döyüşləri zamanı Müşviq oğulları ilə birgə hərbi komissarlığa getsə də, onu qəbul etməyiblər. Ancaq 2020-ci ilin sentyabrında ölkəmizdə səfərbərlik elan olunan zaman Abbasovlar da könüllü olaraq yazılıblar.

Şəhidimizin böyük oğlu İntiqamın sözlərinə görə, hərbi əməliyyatlar başlayan kimi atası ilə birgə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağdam rayon şöbəsinə müraciət ediblər: "Bizə gözləməyi tapşırdılar. Gördüm ki, vaxt uzanacaq, səs-küy saldım. Atam da dedi ki, könüllü müraciət edənləri cəbhəyə göndərməməyə ixtiyarınız yoxdur. Beləliklə, cəbhəyə yollandıq". Nəhayət, 27 sentyabr 2020-ci ildə 50 yaşlı Müşviq iki oğlu və qardaşı Xəqani ilə birgə könüllü olaraq müharibəyə gedib. O, qardaşı və kiçik oğlu Şamil ilə çiyin-çiyinə döyüşüb, böyük oğlu İntiqam isə Suqovuşanda "N" saylı hərbi hissənin kəşfiyyat bölüyünün baş kəşfiyyatçısı olaraq döyüşlərdə iştirak edib. Müşviq Ağdam istiqamətində bir çox hərbi əməliyyatda igidlik göstərib.

5 oktyabr 2020-ci ildə Ağdam rayonunun Qərvənd kəndi istiqamətində gedən döyüşlərdə əsgər Abbasov Müşviq qəhrəmancasına şəhid olub. Şəhidimizin kiçik oğlu Şamil atasının sonuncu döyüşü barədə deyir: "Biz Xaçın çayı ərazisində, Qərvənd istiqamətində idik. Atam gecəni yatmırdı, postlara nəzarət edirdi. Həmin gün bölükdəydik. Gecə düşmüşdü. Arabir atışma səsləri eşidilirdi. Hava qaralanandan sonra xəbər gəldi ki, ikinci posta ermənilər tərəfindən basqın olunub. Bizdən dəstək istədilər. Atam heyəti yığdı, hamımızı təlimatlandırdı. Biz on nəfər heyət üzvü ilə birgə getdik. Ermənilər minaatanlardan və həm də iriçaplı silahlardan atəş açırdılar. Artıq postdan-posta, üzbəüz yaxın döyüş gedirdi. Atam mənə səngərlərdən birinə nəzarət etməyi tapşırdı. Onlarla aramızda 30-40 metrlik məsafə vardı. Atam Sadiq Paşayev və Elşən Həsənovla səngərə girdi. Posta çatanda ilk vurulan Sadiq Paşayev oldu, o yaralanmışdı. Atamın tapşırdığı kimi, əvvəlcə yaralılara kömək etdim, onları təhvil verəndən sonra geri qayıtdım. Atam artıq şəhadətinə qovuşmuşdu".

Müşviq canından çox sevdiyi Ağdam torpağında - Quzanlı kəndində yerləşən Ağdam Şəhidlər Xiyabanında dəfn olunub.

Şəhidimizin üç oğlu var.

Əgər birinci Qarabağ savaşında yaralanan Müşviqi təkcə Qarabağ camaatı tanıyırdısa, Vətən müharibəsində şəhid olan Müşfiqi bütün Azərbaycan tanıyır. Onun hərbi formada oğulları ilə birgə çəkdirdiyi şəkil Vətən müharibəsinin simvollarından birinə çevirilib.

Döyüş tapşırıqlarını yerinə yetirərkən şəxsi mərdlik və igidlik göstərərək adını tariximizə əbədi yazan əsgər Abbasov Müşviq Qabil oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edilib.

## Abbasov Toğrul Bayram oğlu



Şəhid Abbasov Toğrul Bayram oğlu 31 dekabr 1990-cı ildə Ağcabədi rayonunun Hacıbədəlli kəndində dünyaya göz açıb. O, 1996-cı ildə Hacıbədəlli kənd tam orta məktəbin birinci sinfinə daxil olub. 2007-ci ildə bu məktəbi müvəffəqiyyətlə bitirib. 2009-cu ilin yanvarında Ağcabədi rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılan Toğrul Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının Daxili Qoşun Komandanlığında hərbi xidmətdə olub. Hərbi xidmətdən sonra müxtəlif sahələrdə çalışıb. 2019-cu ildə isə sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirərək Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə müddətdən artıq xidmətə başlayıb.

2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsinə qatılan Toğrul döyüşdə cəmi bir gün iştirak etsə də, sərrast atıcılığı ilə onlarla erməni məhv edib, düşməni çarəsiz duruma salıb. Eyni zamanda, həyatını təhlükəyə ataraq, yaralı komandirini və hərbçi yoldaşlarını döyüş meydanından çıxarıb. Lakin sentyabrın 27-də yaxınlığına düşən minaatan mərmisindən qəlpə yarası alaraq şəhidlik zirvəsinə ucalıb. Şəhidimiz öz doğma kəndində torpağa tapşırılıb.

Toğrul ailəli idi, şəhadətindən sonra qızı Yağmur dünyaya gəlib.

Şücaəti və qəhrəmanlığı ilə adını tariximizin şanlı səhifəsinə yazan əsgər Abbasov Toğrul Bayram oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

## Abdalov Nurlan Faiq oğlu



Şəhid Abdalov Nurlan Faiq oğlu 12 iyun 2000-ci ildə Sumqayıt şəhərində dünyaya gəlib. O, ailəsi ilə 2002-2003-cü illərdə Rusiyada yaşayıb. 2006-cı ildə Sumqayıt şəhər 14 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olan Nurlan 2017-ci ildə həmin məktəbin 11-ci sinifini bitirib. O, həmçinin 2012-2015-ci illərdə Sumqayıt şəhər "Dostluq" Mədəniyyət mərkəzində rəssamlıq kursunu bitirib. 2018-ci ilin iyulunda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Sumqayıt şəhər şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Nurlanın hərbi xidmət dövründə vəzifəsi baş sürücü olub, Vətənə layiqli xidmətinə görə ailəsinə 2 dəfə təşəkkür məktubu göndərilib. 2020-ci ilin yanvarın 10-da Nurlan Abdalov 18 aylıq həqiqi hərbi xidmətini uğurla başa vurub. Lakin Vətənə sevgi, hərbiyə və hərbi formaya olan xüsusi marağı, onu yenidən ordu sıralarına qayıtmağa sövq edib. Sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verən qəhrəmanımız kursu uğurla bitirərək Silahlı Qüvvələrin "N" saylı motoatıcı hərbi hissəsində müddətdən artıq xidmətə başlayıb.

2020-ci ilin sentyabrın 27-də Vətən müharibəsi başlayanda hər bir azərbaycanlı kimi, Nurlanın da arzusu düşmən tapdağında olan torpaqları azad etmək, öz doğma kəndlərinə qayıtmaq idi. Cəbhə bölgəsindən uzaqda – xidmət yerində olan qəhrəmanımıza ilk günlərdən can atdığı müharibəyə qatılmaq oktyabrın əvvəllərində qismət olub.

O, Füzuli, Cəbrayıl, Hadrut, Xocavənd uğrunda döyüşlərdə xüsusi fədakarlığı ilə seçilib. Qəhrəmanımız qolundan xəsarət alsa da, hərbi anda sadiq qalaraq sonadək döyüşə davam edib. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə mətinlik və mərdlik göstərərək vuruşan Nurlan Abdalov 44 günlük müharibənin 37-ci günündə - 2020-ci ilin noyabrın 3-də Xocavənd rayonu ərazisində növbəti döyüş tapşırığını yerinə yetirərkən yaxınlığına düşən minaatan mərmisindən şəhid olub. Nurlan noyabrın 5-də Sumqayıt şəhər Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Şəhidimiz subay idi, onun bir bacısı var.

Qorxmazlığı və şücaəti ilə adını Vətən tariximizin şanlı səhifəsinə əbədi yazan əsgər Abdalov Nurlan Faiq oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

Hazırladı: **Ramil Hikmət**

# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2020

## BAMAKO



Mali Respublikası okeana çıxışı olmayan, Mavritaniya, Seneqal, Qvineya, Kot-d'İvuar, Burkina-Faso, Niger və Əlcəzair ilə həmsərhəd olan Qərbi Afrika ölkəsidir. Afrikanın 8-ci ən böyük ölkəsi olan Malinin əhalisi təxminən 21 milyon, ərazisi isə 1,240,192 km²-dir. Artım göstəricisi 3.03% ola əhalinin əsasını bambara, soninke, fulani, sonqay və s. etnik qruplar təşkil edir. Dövlətin rəsmi dili fransız dilidir. Əhalinin 94,84%-ni müsəlmanlar, 2,37%-i xristianlar, 2,02%-i animistlər, 0,77%-ni digər dinlərin nümayəndələri təşkil edir.

Arxeoloji tapıntılar və qayaüstü rəsmlər Malidə ilk insan məskənlərinin mövcud olmasını göstərir. Tədqiqatlara əsasəsən, təxminən e.ə III minillikdə insanlar bu ərazilərdə əkinçiliklə məşğul olmuşlar. E.ə I minillikdən başlayaraq indiki Malinin mərkəzində Niger çayı boyunca erkən şəhərlər və qəsəbələr salınmağa başlanmışdır. Mali dövləti tarixdə Qana, Mali və Sonqay kimi üç fərqli Qərbi Afrika imperiyasının tərkibində olmuşdur. Ölkənin adı Mali imperiyasının adından götürülmüşdür. Bu ad "padşahın yaşadığı yer" mənasını verir.

Mali XIX əsrin sonlarından Fransanın müstəmləkəsinə çevrilmişdir. 1905-ci ilə qədər ərazinin çox hissəsi fransız Sudanının bir hissəsi kimi Fransanın nəzarətində olmuşdur. 1959-cu ilin yanvarında Mali və Seneqal birləşərək Federasiya yaratmış, 22 sentyabr 1960-cı ildə tam müstəqil dövlət olmuşdur. Uzun müddət təkpartiyalı hakimiyyətdən sonra 1991-ci ildə çevriliş nəticəsində çoxpartiyalı hakimiyyət qurulmuş, yeni konstitusiya qəbul edilmişdir.

Ölkə iqtisadiyyatının əsasını kənd təsərrüfatı və mədənçilik təşkil edir. Malidə 1992-ci ildən etibarən çoxşaxəli iqtisadi proqramlar tətbiq edilir. İqtisadiyyatın liberallaşdırılması makroiqtisadiyyatın sürətlə genişlənməsini və davamlı iqtisadi inkişafı təmin etmək üçün şərait yaratsa da, Mali hələ də dünyanın ən kasıb ölkələrindən biridir. Buna baxmayaraq, o, qızıl ehtiyatının çoxluğuna görə digər Afrika ölkələrindən fərqlənir. Ölkənin əsas ixrac məhsulu qızıldır. ÜDM-nin 41,4%-i, məşğulluğun isə 70%-dən çoxu kənd təsərrüfatı sektorunun payına düşür. Mali pambıq istehsalına görə Qərbi Afrika dövlətləri arasında birincidir.

Əhalinin 64%-i kəndlərdə, 36%-i isə şəhərlərdə yaşayır. Ölkənin paytaxtı və ən böyük şəhəri Bamakodur. Niger çayı üzərində, ölkənin cənub-qərb hissəsində yerləşən şəhər əsas inzibati mərkəz, eyni zamanda bütün Qərbi Afrikanın ən mühüm ticarət mərkəzlərindən biridir. Bamakonun əhalisi təxminən 2 milyon civarındadır. O, Laqos, Abican, Kano, İbadan, Dakar və Akkradan sonra Qərbi Afrikanın yeddinci ən böyük şəhəridir. "Bamako" adı "timsah çayı" mənasını verən "Bambara" sözündən törəmişdir. Şəhərdə Paleolit dövrünə aid yaşayış məskənlərinin olmasına dair dəlillər aşkar edilmişdir. Niger çayı vadisinin münbit torpaqları burada ilk insan məskənlərinin salınmasına şərait yaratmışdır. Şəhərin salınma tarixi XVII əsrə təsadüf edir.

Bu gün Bamako botanika və zooloji bağları, tədqiqat mərkəzləri və müxtəlif təhsil müəssisələri ilə ölkənin mədəniyyət və sənaye mərkəzidir. Ölkə sənayesinin əsas infrastrukturunun 70%-i burada qurulmuşdur. Şəhərdə əhali sayı 1960-cı ildən 1970-ci ilə qədər üç dəfədən çox böyümüşdür, bunun əsas səbəbi quraqlıqdan əziyyət çəkən kənd sakinlərinin köçüdür. Bamako Malidən və qonşu ölkələrdən gələn müxtəlif etnik qruplara da ev sahibliyi edir.

Bamakoda müsəlman əhali əksəriyyət təşkil etdiyinə görə məscidlər digər ibadət yerləri ilə müqayisədə daha çoxdur. Bunların ən məşhurları Bamako Mərkəzi məscidi, Eyyub Sultan məscidi, Ömər ibn əl-Xəttab məscidi, Yakuba Quindo məscidi və Dumazana məscididir.

Şəhərin ən hündür tikililərindən biri olan Bamako Mərkəzi məscidi Niger çayının şimalında, mərkəzi bazarın və müstəmləkə dövrü Bamako Kafedralının yaxınlığında yerləşir. O, 1970-ci illərin sonunda Səudiyyə Ərəbistanı hökumətinin maliyyə vəsaiti hesabına, müstəmləkə dövründən əvvəl çiy kərpicdən tikilmiş ibadət evinin yerində inşa olunmuşdur. Bina üslub baxımından kvadrat mərkəzi strukturun ətrafında tikilmiş hündür minarələri ilə Qərbi Afrikadan daha çox Səudiyyə dini memarlığına yaxındır. Şəhərin əksər hissəsindən bu məscidi görmək mümkündür.

Ölkənin ən görkəmli məscidlərindən biri də qardaş şəhər layihəsi çərçivəsində Türkiyə Diyanət Vəqfi tərəfindən inşa edilən Eyyub Sultan məscididir. İnşasına 2012-ci ilin dekabrında başlanan dini ibadət ocağının tikintisi 2013-cü ilin dekabrında tamamlanmışdır. Təxminən 500 m² sahəyə malik olan ibadət evi Qərbi Afrikada Osmanlı memarlığı üslubunda inşa edilən ilk məsciddir. Onun tikintisində istifadə olunan çini, mərmər, xalça və digər materiallar Türkiyədən gətirilmişdir. Dekorasiyaları və daxili dizaynı Osmanlı memarlığına uyğun hazırlanan məscidin fəvvarəsi İznik kirəmitləri və Osmanlı fəvvarələri ilə təchiz edilmişdir. O, 33 metr hündürlüyə malik minarəsi və mislə örtülmüş günbəzləri ilə diqqət çəkir.

Bamako 2020-ci ildə İslam mədəniyyətinin paytaxtı seçilmişdir.

Hazırladı: **Tural Vəlizadə**

# ALBAN-UDİ XRİSTİAN DİNİ İCMASININ SƏDRİ ROBERT MOBİLİ POLŞANIN HƏFTƏLİK "TYGODNİK POWSZECHNY" QƏZETİNƏ MÜSAHİBƏ VERİB

Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili Polşanın həftəlik "Tygodnik Powszechny" qəzetinə müsahibə verib. İcma sədri müsahibəsində Azərbaycandakı dinlərarası və millətlərarası tolerantlıq mühiti, Qafqaz albanlarının hüquqi varisləri olan udi etnosunun öz ana dili və milli adət-ənənələrini qoruyub saxlamaları barədə danışıb.

Ölkəmizin dövlət-din modeli, dini mühiti, müxtəlif dini konfessiyalara göstərilən diqqət və qayğıya toxunan R.Mobili fərqli dini-mədəni dəyərlərə tolerant münasibətin vacibliyinə diqqət çəkib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda tarixi-mədəni irsin və milli-mənəvi dəyərlərin dirçəldilməsinə, qorunub saxlanmasına daim böyük önəm verildiyini vurğulayıb. Heydər Əliyev Fondunun ölkəmizdə dini abidələrin qorunması və bərpasına yardım etməsini də diqqətçəkən məqam kimi qeyd edib.



Krzyż na Kaukazie

MARCELINA SZUMER-BRYSZ

**Jako jedni z pierwszych przyjęli chrześcijaństwo. Zachowali własny język, wiarę i tradycję. Społeczność Udynów w Azerbejdżanie ma się dziś lepiej niż kiedykolwiek.**

Strój jest brązowy. Składają się na niego spodnie, barania czapa, koszula ze stójką i długi, sięgający niemal do ziemi kaftan haftowany złotą nicią. I właśnie on jest najciekawszy. Bo skąd nagle krzyż wyszywany z przodu tradycyjnego ubioru ludowych muzyków ze wsi Nidż (Nic) na północy Azerbejdżanu? Nie tylko zresztą on jest nawiązaniem

REZA / GETTY IMAGES

*Chrzest w społeczności Udynów w kościele św. Elizeusza we wsi Nidż. Azerbejdżan, 4 sierpnia 2013 r.*

Eyni zamanda müsahibədə dini tolerantlıq və etnik müxtəliflik şəraitində Alban-Udi kilsəsinin mövcudluğunu şərtləndirən tarixi köklərin əhəmiyyəti, müxtəlif aspektlər, faktlar və şərtlər üzərindən Alban kilsəsinin dirçəlməsi məsələsinə də toxunulur.

Qeyd edək ki, sözügedən müsahibə qəzetin saytında da yerləşdirilib.

# VATİKAN XALQLARIN YEVANGELİSTLƏŞDİRİLMƏSİ KONQREQASİYASININ YARANMASININ 400-CÜ İLDÖNÜMÜNÜ QEYD EDİR

400 il əvvəl Epifaniya (Rəbbin zühuru) bayramında Papa XV Qriqori bütün dünyada Xristianlığı təbliğ etmək məqsədilə İnancı yaymaq üzrə Vatikan Konqreqasiyasının (Propaganda Fide) əsasını qoydu. Zaman keçdikcə bu idarə Xalqların yevangelistləşdirilməsi Konqreqasiyasına çevrildi.

Bu hadisə "İspan pilləkənləri" yaxınlığında "Sehrbazlar sovməəsi" (Cappella dei Magi) adlanan xüsusi kilsənin tikilməsi ilə əlamətdar oldu. "Sehrbazlar sovməəsi"nə Konqreqasiya yanında Missionerlik Muzeyinə (Missionary Museum) ekskursiya zamanı baxmaq olar. Burada eksponatları dünyanın hər yerindən katolik missiyaları tərəfindən toplanmış məşhur Borcia antikvarları kolleksiyası qorunur.

"Propaganda Fide"ın təsisindən cəmi 3 ay sonra – 1622-ci il 6 yanvar tarixində papa XV Qriqori müqəddəslər Fransisk Xavyer, İqnati Loyola, İsidor, Filipp Neri və Avilalı Terezanı təqdis etdi. Bu müqəddəs havadarların səmavi himayəsinə güvənərək İnancı yaymaq üzrə Vatikan Konqreqasiyası bütün dünyada missiyalar təsis etməyə və təbliğ fəaliyyətinə başladı. Beş il sonra isə papa VIII Urban müxtəlif ölkələrdəki missiyalara göndərilən keşişlərin hazırlanması üçün "Urbanum" papa seminariyasını yaratdı. 1926-cı ildə "Propaganda Fide" missionerlik fəaliyyətini həyata keçirdiyi yerlərin dilində dini kitablar çap etmək məqsədilə özünün "Polyglotta" mətbəəsini qurdu.



Hazırkı prefekti filippinli kardinal Luis Antonio Taqle olan Xalqların yevangelistləşdirilməsi Konqreqasiyası ölçüsü, heyəti və fəaliyyət dairəsi baxımından ən böyük kuriyal departamentlərdən biridir.

# ÜST: "ÖTƏN İL ABORTLARIN SAYI ÜMUMİ ÖLÜM SAYI İLƏ MÜQAYİSƏ EDİLƏ BİLƏR"

"The Christian Post" Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatlarına istinadən xəbər verib ki, 2021-ci ildə dünyada ümumilikdə 58,7 milyon insan dünyasını dəyişib və bu rəqəm eyni dövrdə edilən abortların sayı ilə müqayisə edilə bilər - 42,6 milyon. Nəşr abortların əsas ölüm səbəblərindən biri olduğunu yazır: abortlar ikinci əsas ölüm səbəbi olan yoluxucu xəstəliklərdən daha çox insan ölümünə səbəb olur.

Dünya üzrə səhiyyə statistikasını, dünya əhalisinin sayını və digər göstəriciləri real vaxt rejimində izləyən məlumat bazası "Worldometer" ÜST-ün məlumatlarına əsasən, dünya üzrə abortların sayını müəyyən edir. "Worldometer"in sonuncu sorğusu göstərib ki, 2021-ci



ildə dünyada təxminən 42,6 milyon abort olub.

Halbuki keçən il yalnız 13 milyon insan yoluxucu xəstəliklərdən dünyasını dəyişib. Digər əsas ölüm səbəbləri abortun "kölgəsində qalır": keçən il dünyada 8,2 milyon insan xərçəngdən, təxminən 5 milyon insan siqaretdən, təxminən 2,5 milyon insan alkoqoldan, təxminən 1,7 milyon insan HİV/AİDS-dən dünyasını dəyişib, 1,3 milyondan çox insan yol-nəqliyyat hadisələrinin qurbanı olub və təxminən 1,1 milyon intihar hadisəsi baş verib.

Əgər abort rəsmi ölüm səbəbləri sırasına daxil edilsəydi, keçən il ölənlərin sayı ümumilikdə 100 milyonu ötərdi.

# YUNANISTANDA TAPILAN TAXTA LÖVHƏ MƏLUM OLAN ƏN ERKƏN YAZILI MƏTN OLA BİLƏR



Ənənəvi arxeologiya yazının eramızdan əvvəl 4000-3000-ci illər arasında Şumerdə icad edildiyini iddia etsə də, bu qənaətə zidd artefakt 1993-cü ildə Yunanıstanın şimalındakı Kastoriya əyalətində tapılıb.

"Dispilio lövhəciyi" üzərində eramızdan əvvəl 7260-5250-ci illərə aid simvollar olan taxta lövhədir. O, Kastoriyanın Makednos bələdiyyəsində, Dispilio gölünün yaxınlığındakı yaşayış məntəqəsində professor Corc Hurmuziadis tərəfindən aşkar edilib. Bu, ərazidə tapılan çoxsaylı artefaktlardan - keramika, meyvələr, sümüklər, heykəlciklər, Avropada kəşf edilən ilk Neolit dövrü fleytası - biridir.

Yunanıstan Universitetinin professoru Antonios Keramopulos göl kənarındakı Dispilio şəhərini 1932-ci ildə təsadüfən kəşf edib. Ərazidə arxeoloji qazıntılara isə 1992-ci ildə Salonikdəki Aristotel Universitetinin arxeologiya professoru Corc Hurmuziadisin rəhbərliyi ilə başlanılıb.

"Dispilio lövhəciyi"ndəki mətn oyma yazı şəklindədir və güman ki, sonralar mikenalılar tərəfindən istifadə olunmuş B xətti yazı formalarından biridir.

Uzun müddət palçıqda və su içində qalmış lövhəcik birdən oksigenlə zəngin mühitə düşdüyündən zərər görmüşdür. Hazırda o, konservasiyadadır.

# TANINMIŞ MİSİRLİ HÜQUQŞÜNAS XRİSTİANLIQ VƏ İSLAMIN "XRİSTİSLAM" ADI ALTINDA BİRLƏŞMƏSİ İLƏ BAĞLI ŞAYİƏLƏRİ TƏKZİB EDİB

Tanınmış misirli hüquqşünas Xristianlıq və İslamın "Xristislam" adı altında birləşməsi ilə bağlı çaxnaşmaya səbəb olan şayiələri təkzib edib. Bu barədə söz-söhbət Roma Papası ilə əl-Əzhərin böyük imamı "İnsan qardaşlığı sənədi"ni imzaladıqdan qısa müddət sonra yaranıb. Bu barədə "fides" məlumat verib.

Misir Dövlət Şurasının hakimi, zorakılıq və insan ləyaqətinin alçaldılması əleyhinə qanun layihələrinin aparıcı müəllifi Məhəmməd Mahmud Əbdüssalam "abouna.org" saytında ərəb dilində əsaslandırılmış məqalə dərc edib. O bildirib ki, Qərbdə və bəzi ərəb ölkələrində yayılan qərəzli şayiələrin əsas məqsədi məlumatsız insanları çaşdırmaqdır. Onları inandırmağa çalışırlar ki, Əbu-Dabidə katolik pontifiki və əl-Əzhərin böyük imamı tərəfindən imzalanmış "İnsan qardaşlığı sənədi" iki böyük dinin "vahid dünya dini"ndə birləşməsinin təməlini qoyur. Əslində isə, bu, reallıqla heç bir əlaqəsi olmayan, ustalıqla təhrif edilmiş yalançı fərziyyələrdən başqa bir şey deyil.

Məhəmməd Mahmud Əbdüssalam söyləyib ki, əl-Əzhərin böyük imamı Şeyx Əhməd ət-Tayyibin müşaviri qismində "Bütün Dünyada Sülh və Birgə Yaşayış naminə İnsan Qardaşlığı haqqında Sənəd"in (The Document on Human Fraternity for World Peace and Living Together) hazırlanmasında şəxsən iştirak etdiyi üçün əsl faktlara və hadisələrin arxa planına yaxından bələddir. Bu işdə ona o zaman Papanın şəxsi katibi olmuş misirli keşiş Yoannis Lahzi Qayd kömək edirdi.

Mahmud Əbdüssalam vurğulayıb ki, onilliklər ərzində Qərb mediası bütövlükdə Şərqi və xüsusən də ərəb dünyasını dini dözümsüzlüyün və qeyri-din nümayəndələrinə qarşı təqiblərin hökm sürdüyü bölgələr kimi təqdim edib. Əslində, uzun illərdir ki, bu problemli bölgələr müxtəlif dövlətlərin siyasi maraqlarının toqquşma meydanına çevrilib, üstəlik, onlar öz məqsədlərinə çatmaq üçün dinlərdən asanlıqla istifadə edirlər. Bütün bunlara baxmayaraq, Yaxın Şərqin ən "qaynar" bölgələrində belə, tarixin bir çox mərhələlərində "dini tolerantlıq və dinc yanaşı yaşama" hökm sürmüşdür. Bəşəriyyətin qardaşlığına dair sənəd də sülh və mehriban qonşuluğa çağırış kimi düşünülmüş və "dünyadakı bütün insanlara, dindarlara və inancsızlara ünvanlanmışdır".

Məqalədə deyilir: "Qərbin və Yaxın Şərqin bəzi dairələri tərəfindən əsasən "İbrahim ailəsinin evi"ni hədəf götürən bütöv bir qarayaxma kampaniyasına başlanılıb. Əbu-Dabidə İnsan Qardaşlığı Komitəsinin təşəbbüsü ilə inşa olunan bu dinlərarası kompleksdə kilsə, məscid, sinaqoq və mədəniyyət mərkəzi tikiləcək. Bəzi saytlar və sosial şəbəkələr dərhal bu nəcib layihənin əleyhinə silahlandılar. Onlar yalan danışırlar ki, bu, bütün ibrahimi dinlərin birləşməsi yolunda ilk addımdır və məqsədi zamanla, bir növ "vahid dünya dini" formalaşdırmaqdır. Bu cür böhtan və uydurmalarının mənasızlığını başa düşmək üçün "İbrahim ailəsinin evi" layihəsini heç olmasa səthi araşdırmaq kifayət edir. "İbrahim ailəsinin evi" təkcə elə öz adı ilə yəhudilərin, xristianların və müsəlmanların bütün möminlərin atası İbrahimlə bu çoxdankı əlaqəsini vurğulayır və onların birliyinin qədim mənşəyini tərənnüm edir. Onun ideyası heç bir halda hər hansı bir icmanın adət-ənənələrinin və rituallarının özünəməxsusluğunu və zənginliyini aradan qaldırmır".

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, insanların mənəvi baxımdan sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini yanvar ayı ərzində də davam etdirmişdir.*



**Cari ay ərzində bu qəbildən:**

**13 yanvar** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən Rayon İcra Hakimiyyəti və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Balakən rayon qazılığının birgə təşkilatçılığı ilə Balakəndə 2021-ci ilin yekunları və 2022-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş tədbir; Lənkəran Şəhər Gənclər və İdman İdarəsi, DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran Tibb kollecinin birgə təşkilatçılığı ilə "Sağlam həyat tərzi, sağlam düşüncə" mövzusunda;

**14 yanvar** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin və Ombudsmanın Cəlilabad Regional Mərkəzinin birgə təşkilatçılığı ilə Lənkəran Dövlət Peşə Liseyində "Uşaqlara qarşı yol verilən zorakılıq halları və onunla effektiv mübarizə tədbirləri" mövzusunda;

**17 yanvar** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Masallı Rayon Polis (RPŞ) və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə pandemiya qaydalarını gözləməklə "Narkomaniya bəşəri bəladır" mövzusunda;

**18 yanvar** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və şəhər Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə "Dini ekstremizm və onun fəsadları" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, şəhər Gənclər və İdman İdarəsi, şəhər Təhsil Şöbəsi və Rasim Məmmədov adına 5 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə "Zəfər zirvəsindən tariximizə baxış" mövzusunda;

**21 yanvar** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Narkomaniyaya yox, erkən nikah və dini radikalizmə qarşı mübarizə" mövzusunda;

**24 yanvar** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala Rayon İcra Hakimiyyəti və rayon Qazılığının birgə təşkilatçılığı ilə 2021-ci ilin yekunları və 2022-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş;

**25 yanvar** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağsu rayon Məmməd Mirzəməmmədov adına Aratkənd kənd tam orta məktəbində maarifləndirmə istiqamətində;

**28 yanvar** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Gənclərin zərərli vərdişlərdən qorunmasında təhsilin rolu" mövzusunda;

**29 yanvar** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göyçay rayonunda dini durumun müzakirəsinə həsr olunmuş tədbirlər keçirilmişdir.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, o cümlədən orta məktəb direktorları, müavinləri və psixoloqlarının, uşaq birliyi təşkilatları rəhbərlərinin və şagirdlərin iştirakı ilə keçirilən videokonfranslar zamanı düzgünlük, humanizm, vətənpərvərlik, xeyirxahlıq, mərhəmət, milli-mənəvi dəyərlərə bağlılıq, böyüklərə hörmət, əməksevərlik ruhunda tərbiyə edilməsində əsas məsuliyyəti ailənin daşıdığı vurğulanmışdır.

Milli birliyin möhkəmlənməsində mənəvi dəyərlərin rolu barədə danışan natiqlər qeyd etmişlər ki, hazırda dövlət siyasətinin prioritet istiqamətlərindən biri də milli-mənəvi dəyərlərə və tarixi-mədəni irsə bağlılığın möhkəmlənməsi, adət-ənənələrin qorunması, mədəni-tarixi abidələrin mühafizəsi, mənəvi irsin öyrənilməsidir. Həmçinin məktəblilərin zərərli vərdişlərdən və radikal dini təsirlərdən qorunmasının vacibliyini vurğulanmış, bu istiqamətdə dövlətin həyata keçirdiyi tədbirlərdən bəhs olunmuşdur. Çıxışlarda gənclərin radikal dini təsirlərdən, dini radikalizmdən qorunmasında təhsilin önəmi vurğulanmışdır.



Tədbirlərdə insan hüquqlarının tərkib hissəsi olan uşaq hüquqlarına, eləcə də onların təhsil hüququna diqqət çəkilmişdir. Çıxışlarda insan hüquq və azadlıqları, bu sahədə qəbul edilmiş qanunlar, qərarlar və digər normativ aktlar haqqında məlumat verilərək, ölkəmizdə bu sahədə görülən işlər, həyata keçirilən layihələr haqqında danışılmışdır. Həmçinin vurğulanmışdır ki, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir və dövlət hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir. Ölkəmizdə bütün dinlərin nümayəndələrinin hüquq, inanc və azadlığına hörmətlə yanaşılır.

Narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı aparılan tədbirlərdən, zərərli vərdişlərə qarşı mübarizədə gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin əhəmiyyətindən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından bəhs olunan konfranslarda qarşılıqlı müzakirələr aparılmışdır.

Tədbirlərin sonunda iştirakçıların təklifləri dinlənilmiş, onları maraqlandıran suallar cavablandırılmışdır.

# 20 Yanvar - Ümumxalq Hüzn Günü ilə əlaqədar silsilə tədbirlər keçirilib



20 Yanvar – Ümumxalq Hüzn Günü ilə əlaqədar ölkəmizdə silsilə anım tədbirləri keçirilmişdir. Bu qəbildən olan tədbirlər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə ölkənin müxtəlif şəhər və rayonlarında - Kürdəmir, Zaqatala, İmişli, Zərdab, Masallı, Quba, Gəncə, Lənkəran, Yevlax, Ucar, Şamaxı, Göyçay, Goranboy və Ağcabədidə təşkil olunmuşdur.

Tədbir iştirakçıları əvvəlcə 20 Yanvar şəhidlərinin və Azərbaycanın suverenliyi uğrunda öz canlarını fəda etmiş şəhidlərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər. Çıxışlar zamanı qeyd olunmuşdur ki, 20 Yanvar - Ümumxalq Hüzn Günü olmaqla yanaşı, həm də Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyini nümayiş etdirmişdir. Bu hadisə Azərbaycan milli kimliyinin formalaşmasına həlledici təsir göstərib, dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi olmuşdur.

Çıxış edən natiqlər Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyətinin açıqlandığını qeyd etmişlər.



# MARİYA MAQDALENA MAQDALADAN DEYİL?

ABŞ və Britaniya alimləri Mariya Maqdalenanın əslən Maqdala şəhərindən olmadığına dair sübutlar tapıblar. Bu barədə "religionnews" xəbər verib.

İsrailin Miqdad (Maqdala kimi də tanınır) şəhəri yaxınlığında qazıntı işləri aparan arxeoloqlar birinci əsrə aid sinaqoqun qalıqlarını tapıblar. "Jerusalem Post" qəzetində çıxan xəbərdə deyilir: "Biz Bibliya personajı Mariya Maqdalenanın doğulduğu ərazidə II Məbəd dövrünə aid sinaqoq aşkarlamışıq". Ardınca analoji xəbərlər Britaniyanın "Newsweek", "Express UK" nəşrlərində və "Smithsonian" jurnalında da işıq üzü görüb.

Qaliley dənizinin qərb sahilində yerləşən bu şəhərdə qədim sinaqoqun kəşfi, sözsüz ki, həmin yerlərin tarixi baxımından əhəmiyyətlidir. Bununla belə, ABŞ və Böyük Britaniyadan olan iki tədqiqatçının iddiaları Həzrət İsanın ilk davamçılarından biri və onun dirilməsinin ilk şahidi olan Mariya Maqdalenanın sözügedən şəhərdə doğulması ilə bağlı ənənəvi təsəvvürləri şübhə altına alır.



Belə ki, Dük Universitetinin aspirantı Elizabet Şreyder və London Kral Kollecinin professoru Coan Taylor öz məqalələrində Mariyanın Maqdalada anadan olması əfsanəsinin sırf spekulyativ əsaslarla yarandığını iddia edirlər. Onlar bildirirlər ki, qədim ibrani və aramey dillərində "maqdala" və "maqdalena" sözləri "sütun", "qüllə", "ucaldılmış", "göylərə qaldırılmış" mənalarında işlədilmişdir.

"Bibliya ədəbiyyatı" (Journal of Biblical Literature) jurnalının dekabr sayında müəlliflər qeyd edirlər: "Mənbələrdə onun adının müxtəlif şərhlərinə rast gəlinsə də, VI əsrə qədər heç bir müəllif onu Qaliley dənizi sahilindəki şəhərdən olmasının sübutu kimi şərh etməmişdir. Bəzi qədim müəlliflər həqiqətdə Mariyanın ikinci adının onun mənşəyindən deyil, həyatdakı rolundan qaynaqlandığını müəyyənləşdiriblər".

Tədqiqatçılar məqalələrində ilk kilsə atalarının uzun müddət öz yazılarında əxlaqsız və səfil qadın kimi təsvir etdikləri Mariya Maqdalena obrazını başqa cür dərk etməyə çalışırlar. Alimlər hazırda İncilləri və erkən xristian yazılarını yenidən nəzərdən keçirir, onlarda Mariyanın əsl mənşəyinə dair sübutlar tapmağa və oturuşmuş şərhi təkzib etməyə çalışırlar.

CƏMİYYƏT və DİN
№ 01 (363) YANVAR 2022-ci il

# ÜMUMDÜNYA DİNLƏRARASI HARMONİYA HƏFTƏSİ

20 oktyabr 2010-cu il tarixində Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyası özünün 34-cü plenar sessiyasında insanlar arasında qarşılıqlı anlaşma, harmoniya və əməkdaşlığı gücləndirmək üçün müxtəlif konfessiyalar və dinlər arasında dialoqun inkişaf etdirilməsinin zəruriliyini vurğulamışdır. Nəticədə Baş Assambleya hər il fevral ayının ilk həftəsinin bütün dinlər, etiqadlar arasında harmonik münasibətlər həftəsi elan olunması barədə qətnamə qəbul etmişdir.

İlk belə həftə 2011-ci il 1-7 fevral tarixlərində keçirilmişdir.

BMT-nin 8-ci Baş katibi Pan Gi Mun: "Birinci Ümumdünya Dinlərarası Harmoniya Həftəsi dünyanın diqqətini müxtəlif din və inanc ardıcılları arasında qarşılıqlı hörmət və anlaşmanı təşviq etmək üçün dini liderlər, dinlərarası hərəkatlar və ayrı-ayrı şəxslər tərəfindən göstərilən səylərə cəlb etmək imkanı verir".

Qətnamədə vurğulanır ki, bütün dinlərin, inancların təbliğatçılarının mənəvi vəzifəsi insanları sülhə, dözümlülüyə və qarşılıqlı anlaşmaya təşviq etməkdir. BMT bütün dövlətləri bu həftə ərzində könüllü olaraq konfessiyalararası harmoniya və xoş niyyətin yayılmasına dəstək olmağa çağırır.

"Bu gün bəşəriyyət əvvəlkindən daha çox məlumat, texnologiya və biliyə malikdir, lakin insanlar hələ də münaqişələrin qarşısını almaq, yoxsulluğu aradan qaldırmaq və hər kəsə daha təhlükəsiz dünyada harmoniya içində yaşamağı öyrənmək imkanı vermək baxımından korluq çəkir. Bugünkü yeni qeyri-sabitlik və qloballaşma şəraitində anlamaq lazımdır ki, sülh təkcə müharibənin olmaması deyil. Sülh aramızdakı fərqlərdən - cinsimizdən, irqimizdən, dilimizdən, dinimizdən və ya mədəniyyətimizdən asılı olmayaraq birlikdə yaşamaq deməkdir, ümumbəşəri ədaləti təbliğ etmək və bu birgəyaşayışın asılı olduğu insan hüquqlarına hörmət etmək deməkdir".

Mədəniyyətlərarası dialoqun və dini tolerantlığın güclənməsinə yönəlmiş səyləri nəticəsində ölkəmiz də dünyada dinlərarası tolerantlığın sahəsində model dövlətlərdən biri rolunu oynayır. Azərbaycan hökuməti tərəfindən yerli və beynəlxalq səviyyələrdə dini tolerantlığın və dialoqun təşviq edilməsinə yönəlmiş tədbirlər regionun və dünyanın bir çox ölkələri üçün örnək təşkil edir.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev: "...biz bu gün beynəlxalq aləmdə dinlərarası dialoqun möhkəmləndirilməsi üçün öz dəyərli töhfəmizi veririk. Təsadüfi deyil ki, məhz Azərbaycan dünyanın multikulturalizm mərkəzlərindən birinə çevrilmişdir. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, dialoqlar, mədəniyyətlərarası dialoq, humanitar forum, dünya dinlərinin liderlərinin zirvə görüşləri - bütün bunlar bu gün Azərbaycan reallıqlarıdır. Biz çalışırıq bu tədbirlərin keçirilməsi ilə ümumi işimizə töhfəmizi verək ki, dünyada da dini, milli zəmində heç vaxt anlaşılmazlıq, qarşıdurma olmasın".

## ŞOTLANDİYADA TÜRKİYƏ SULTANLARININ PORTRETLƏRİ TAPILIB



Şotlandiyada dəyəri 50-70 min funt sterlinq qiymətləndirilən malikanənin çardağında Osmanlı İmperiyası hökmdarlarının qədim portretləri tapılıb.

Türkiyənin "Ahval News" nəşri bildirir ki, rəsmlər Şotlandiyanın Cedboro şəhəri yaxınlığındakı malikanədə saxlanılır. Kətan üzərində çəkilmiş rəsmlərdə XVI əsrdə Osmanlı İmperiyasında hökmranlıq edən sultan Süleyman Qanuni, XIV əsrin sonlarında hakimiyyətə gələn Sultan I Yıldırım və 1481-ci ildə taxta çıxan Sultan II Bəyazid təsvir edilib.

"Sotheby's" Hərrac Evi Şotlandiya filialının rəhbəri Devid Makdonald tapıntını inanılmaz adlandırıb. O hesab edir ki, portretlər XVII əsrdə üçüncü Lothian qrafı tərəfindən Avropada səyahətdə olarkən əldə edilib.

## Bakı və Abşeron üzrə namaz vaxtları (Fevral - 2022)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 06:28 | 07:50 | 12:54 | 16:17 | 18:13 | 19:16 |
| 2 | 06:27 | 07:49 | 12:54 | 16:18 | 18:14 | 19:17 |
| 3 | 06:26 | 07:48 | 12:54 | 16:20 | 18:15 | 19:18 |
| 4 | 06:25 | 07:47 | 12:55 | 16:21 | 18:17 | 19:19 |
| 5 | 06:24 | 07:46 | 12:55 | 16:22 | 18:18 | 19:20 |
| 6 | 06:23 | 07:45 | 12:55 | 16:23 | 18:19 | 19:21 |
| 7 | 06:22 | 07:44 | 12:55 | 16:24 | 18:20 | 19:22 |
| 8 | 06:21 | 07:43 | 12:55 | 16:25 | 18:21 | 19:23 |
| 9 | 06:20 | 07:42 | 12:55 | 16:26 | 18:23 | 19:24 |
| 10 | 06:19 | 07:41 | 12:55 | 16:28 | 18:24 | 19:25 |
| 11 | 06:18 | 07:40 | 12:55 | 16:29 | 18:25 | 19:26 |
| 12 | 06:17 | 07:38 | 12:55 | 16:30 | 18:26 | 19:28 |
| 13 | 06:16 | 07:37 | 12:55 | 16:31 | 18:27 | 19:29 |
| 14 | 06:15 | 07:36 | 12:55 | 16:32 | 18:28 | 19:30 |
| 15 | 06:14 | 07:35 | 12:55 | 16:33 | 18:30 | 19:31 |
| 16 | 06:13 | 07:33 | 12:55 | 16:34 | 18:31 | 19:32 |
| 17 | 06:11 | 07:32 | 12:55 | 16:35 | 18:32 | 19:33 |
| 18 | 06:10 | 07:31 | 12:55 | 16:37 | 18:33 | 19:34 |
| 19 | 06:09 | 07:29 | 12:55 | 16:38 | 18:34 | 19:35 |
| 20 | 06:08 | 07:28 | 12:55 | 16:39 | 18:35 | 19:36 |
| 21 | 06:06 | 07:27 | 12:54 | 16:40 | 18:37 | 19:37 |
| 22 | 06:05 | 07:25 | 12:54 | 16:41 | 18:38 | 19:38 |
| 23 | 06:04 | 07:24 | 12:54 | 16:42 | 18:39 | 19:40 |
| 24 | 06:02 | 07:22 | 12:54 | 16:43 | 18:40 | 19:41 |
| 25 | 06:01 | 07:21 | 12:54 | 16:44 | 18:41 | 19:42 |
| 26 | 06:00 | 07:20 | 12:54 | 16:45 | 18:42 | 19:43 |
| 27 | 05:58 | 07:18 | 12:54 | 16:46 | 18:43 | 19:44 |
| 28 | 05:57 | 07:17 | 12:53 | 16:47 | 18:44 | 19:45 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## QƏDİM MİSİR TƏBABƏTİNİN SİRLƏRİ

Arxeoloqlar qədim Misir məzarında unikal bir fakt aşkar ediblər. Onlar 2000 il əvvəl ölmüş qızın mumiyalanmış cəsədində kətan bintlə sarılmış yara tapıblar. Müəyyən edilib ki, qədim misirlilər ilk fironların hakimiyyətə gəlməsindən təxminən min il əvvəl, yəni 6 min il öncə kiçik cərrahiyyə əməliyyatları, o cümlədən qırıq sümüklərin birləşdirilməsi sahəsində böyük təcrübəyə malik olublar. Onlar, həmçinin papiruslarda reseptləri göstərilmiş çoxsaylı dərmanlardan istifadə ediblər.

"Egypt Today" nəşri xəbər verir ki, Qədim Misir təbabətinin bir çox hallarda magiya ilə əlaqələndirilməsinə baxmayaraq, tibbi tədqiqatlar müalicənin effektivliyinin və əczaçılıq kompozisiyalarının 1973-cü ildə nəşr olunan Britaniya Əczaçılıq Konstitusiyasına 37 faiz uyğun olduğunu müəyyən edib. Kahinlərin papiruslarda qeydə aldıqları tibbi mətnlərdə müayinə, diaqnoz və müalicənin müasir standartlara görə tamamilə düzgün olduğu aşkarlanıb. İlk misirlilərin anatomik bilikləri onların insan bədənini qorumaq üçün ölülərin mumiyalanmasına olan marağından irəli gəlirdi.

Bəzi qədim Misir əlyazmalarında böyük kahinlərdən biri İmhotepin qədim Misirdə təbabətin banisi hesab edildiyi qeyd olunur. Onun həm də heroqlif yazının yenilikçisi olduğuna inanılır. Bu səbəbdən qədim misirlilər sonrakı dövrlərdə İmhotepi "şəfa tanrısı" adlandırıblar.

## DÜNYADA ƏN SƏLİQƏLİ AVİAŞİRKƏTLƏRİN ADLARI MÜƏYYƏN EDİLİB

Səyahətlər və aviasiya sahəsində tədqiqatlar üzrə ixtisaslaşan "Cirium" analitik şirkəti dünyada ən səliqəli aviaşirkətlərin adlarını müəyyən edib.

"Tonkosti turizma" saytı xəbər verir ki, bu göstərici üzrə ən yaxşı aviaşirkət "All Nippon Airways" olub. Burada reyslərin 95 faizi vaxtında yerinə yetirilib. İkinci yeri "Japan Airlines" (94,1 faiz), üçüncü yeri "Aeroflot" tutub (91,05 faiz).

Şimali Amerika aviaşirkətləri arasında ən səliqəlisi "Delta Air Lines" (87,7 faiz), Latın Amerikası şirkətləri arasında "Copa Airlines" (90,3 faiz) fərqlənib. Avropada ən yaxşı aviaşirkət "Vueling" (92,1 faiz), Asiyada "Japan Airlines" və "All Nippon Airways", Afrikada və Yaxın Şərqdə "Safari" şirkəti irəlidədir (96,4 faiz).

Ən səliqəli loukoster 97,9 faiz göstəriciyə nail olmuş "Solased AİR" şirkətidir.

Reyslərin əksər hallarda vaxtında yola düşdüyü aeroport Yaponiyada Haneda aeroportudur (95,6 faiz). Bu parametr üzrə ikinci yeri Rusiyanın Şeremetyevo (94,8 faiz), üçüncü yeri Çinin Şuanlyu aeroportu tutur (88,2 faiz).

### Yadigar söz

***Demokrit***

*Yaxşı tərbiyə - xoşbəxt günlərdə yaraşıq, bədbəxt günlərdə sığınacaq kimidir.*

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV
Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894